**Proqram:** Dövlət qulluğunun təşkili və idarə edilməsi
**Qrup üzvləri:** Səid Abasov, Murad Nəbi, Abdul İsmayılzadə
**Layihənin adı:** Cəlilabad rayonunda qadınların ailədə təhsil və əmək hüquqlarının məhdudlaşdırılması problemlərinin həlli yolları

**Təşkilat üzrə rəhbər (Supervisor):** ________________________________________

**E-mail ünvanı:**

**Telefon nömrəsi:**

**TƏSDİQLƏYİR:**

**Elmi rəhbər:** Dr. Lalə Cumayeva
**İmza:** _______________________________

**Tarix:** ____ / ____ / ____

**ADA UNİVERSİTETİ**

**DÖVLƏT QULLUĞUNUN TƏŞKİLİ VƏ İDARƏ EDİLMƏSİ ÜZRƏ MAGİSTR PROQRAMI**

**DÖVLƏT QULLUĞUNUN TƏŞKİLİ VƏ İDARƏ EDİLMƏSİ ÜZRƏ MAGİSTR DƏRƏCƏSİNİN TƏLƏBLƏRİNİN YERİNƏ YETİRMƏSİ ÜÇÜN TƏQDİM EDİLƏN CAPSTON LAYİHƏSİ**

Cəlilabad rayonunda qadınların ailədə təhsil və əmək hüquqlarının məhdudlaşdırılması problemlərinin həlli yolları

Səid Abasov (sabasov22453@ada.edu.az)
Murad Nəbi (mnabi21520@ada.edu.az)
Abdul İsmayılzadə (aismayilzada21557@ada.edu.az)

Bakı, 19 dekabr 2025

**ADA UNİVERSİTETİ**

**Proqram:** Dövlət qulluğunun təşkili və idarə edilməsi
**Tələbə adları:** Səid Abasov, Murad Nəbi, Abdul İsmayılzadə
**Layihənin adı:** Cəlilabad rayonunda qadınların ailədə təhsil və əmək hüquqlarının məhdudlaşdırılması problemlərinin həlli yolları

**TƏSDİQ EDƏN:**

**Akademik rəhbər:** ______________________________________________

**Təşkilat üzrə rəhbər:** ____________________________________________

**Dekan:** _________________________________________________________

Tarix: ____________________ (GG/AA/İİ)

**ORİJİNALLIQ BƏYANATI**

ADA Universitetinin plagiatla bağlı siyasətini oxuduğumu təsdiq edirəm və "Azərbaycanda kənd kitabxanalarının və mədəniyyət klublarının fəaliyyətsizliyi: Problemlər və siyasət alternativləri" adlı bu işin tamamilə mənə məxsus olduğunu və hər hansı açıqlanmamış kənar mənbə və ya qeyri-orijinal material ehtiva etmədiyini bəyan edirəm.

Ad, Soyad və İmza: ______Səid Abasov____________
Ad, Soyad və İmza: ______Murad Nəbi_____________
Ad, Soyad və İmza: ______Abdul İsmayılzadə_______

Tarix: 17 / dekabr / 2025

# MÜNDƏRİCAT

**FƏSİL 1. GİRİŞ** .....7

**FƏSİL 2. CƏLİLABADDA GENDER MÜNASİBƏTLƏRİNİN FORMALAŞMA DİNAMİKASI VƏ AİLƏDAXİLİ QƏRARVERMƏ MEXANİZMLƏRİNİN QADINLARIN TƏHSİL VƏ MƏŞĞULLUĞUNA TƏSİRİ VƏ MÖVCUD VƏZİYYƏT** .....11

2.1. Aşağı sosial iqtisadi vəziyyət və iş imkanlarının məhdudluğu .....11

2.2. Qız uşaqlarının natamam orta təhsili və nəzarət mexanizmlərinin olmaması .....15

2.3. Erkən nişan və uşaq nikahları .....18

2.4. Ənənəvi normalar və mentalitet .....22

**FƏSİL 3. PROBLEMLƏRİN HƏLLİ İSTİQAMƏTLƏRİ** .....25

3.1. İqtisadi rifahın yaxşılaşdırılması və sosial təşəbbüslərin tətbiqi .....26

3.2. Orta ümumtəhsil müəssisələrində monitorinq mexanizminin yaradılması .....27

3.3. Ailə və nikah məsələlərində hüquqi və ictimai nəzarətin artırılması .....29

3.4. Rayon sakinlərinin qadın hüquqları və gender bərabərliyi mövzusunda maarifləndirilməsi .....31

**FƏSİL 4. TƏKLİF OLUNAN HƏLL YOLLARININ QİYMƏTLƏNDİRİLMƏSİ** .....33

**FƏSİL 5. NƏTİCƏ VƏ TÖVSİYƏLƏR** .....37

5.1. Tədqiqatın ümumi xülasəsi .....37

5.2. Üstünlük verilən siyasət variantı .....37

5.3. Qısamüddətli və uzunmüddətli tövsiyələr .....38

**ƏDƏBİYYAT SİYAHISI** .....40

**ƏLAVƏLƏR** .....41

**XÜLASƏ**

Cəlilabad rayonunda, xüsusilə kənd yerlərində qadınların təhsil və əmək hüquqlarının məhdudlaşdırılması uzun illərdir davam edən sosial-mədəni və iqtisadi proseslərin nəticəsi kimi formalaşmışdır. Ənənəvi patriarxal dəyərlər, “camaat nə deyər” kimi sosial nəzarət mexanizmləri, erkən nişanlanma və nikah praktikası, qadınlar üçün iş imkanlarının məhdud olması və hüquqi mexanizmlərin zəif icrası qızların hətta orta məktəb zamanı təhsildən yayınmasına və qadınların əmək bazarından kənarda qalmasına gətirib çıxarır. Bu vəziyyət qadınların iqtisadi və sosial müstəqilliyini zəiflədir, regionun insan kapitalını zəiflədir, ailə rifahı və sosial-iqtisadi inkişaf üçün əlavə maneələr yaradır.

Araşdırmanın məqsədi Cəlilabad rayonunda qadınların təhsil və əmək hüquqlarının ailə və icma səviyyəsində necə məhdudlaşdırıldığını hərtərəfli öyrənmək, bu məhdudiyyətlərin sosial-iqtisadi nəticələrini qiymətləndirmək və beynəlxalq və yerli təcrübəyə əsaslanan siyasət alternativləri formalaşdırmaqdır. Bu məqsədlə tədqiqat qarışıq metodologiya əsasında aparılacaq: Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarının təhlili, beynəlxalq hesabatların (UNICEF, UNDP, Girls Not Brides və s.) müqayisəli araşdırılması, Cəlilabad rayonundan olan ekspert ilə müsahibə və 78 qadın arasında keçirilən sorğu. Sorğunun nəticələri SPSS proqramında deskriptiv statistik metodlarla emal ediləcək, keyfiyyət məlumatları isə tematik yanaşma ilə təhlil ediləcək.

Tədqiqatın nəticələrinin Cəlilabad və ümumilikdə cənub bölgəsində gender bərabərliyi siyasətinin formalaşdırılmasına, qızların təhsildən yayınmasının və erkən nikahların azaldılması üçün hədəfli müdaxilə proqramlarının hazırlanmasına, qadınların əmək bazarına çıxışını yaxşılaşdıran iqtisadi və sosial alətlərin müəyyənləşdirilməsinə töhfə verməsi gözlənilir. Qadınların təhsil və əmək hüquqlarının genişləndirilməsi sayəsində həm ailələrin rifah səviyyəsinin yüksəlməsi, həm də regionun sosial-iqtisadi inkişafında daha balanslı və dayanıqlı modelin formalaşması perspektivi güclənəcək. Good!

## FƏSİL 1. GİRİŞ

Azərbaycanda qadınların təhsildə və əmək bazarında iştirakının artırılması dövlətin sosial siyasətinin əsas istiqamətlərindən biridir. Ölkə üzrə statistikaya görə, ali təhsil müəssisələrində təhsil alan tələbələrin yarıdan bir qədər çoxunu qadınlar təşkil etmişdir (2023-2024-cü tədris ilində 51,1%) ki, bu da gender balansına doğru müsbət meyildir (DSK, 2024). Bununla bağlı göstəricilərə qrafik üzərindən baxaq.

**Qrafik 1. Azərbaycanda ali təhsil müəssisələrində təhsil alan qadınların sayı və onların ümumi tələbə sayında payı (1990-2023).**




Mənbə: DSK, 2024

Qrafikdən göründüyü kimi, 1990–2023-cü illərdə Azərbaycanda ali təhsil alan qadınların sayı həm kəmiyyət, həm də pay baxımından sabit artım tendensiyası nümayiş etdirib. 1990-cı ildə qadınların ümumi tələbələr içində payı 37,9% olduğu halda, bu göstərici 2023-cü ildə 51,1%-ə yüksəlib. İlk onillikdə iqtisadi çətinliklər və müharibə şəraiti səbəbindən ümumi tələbə sayı 105 mindən 89 minə enmiş, qadınların payı isə dəyişkən, lakin yüksəlmə meyilli olmuşdur. 2000-ci illərin əvvəllərindən ali təhsildə sabitləşmə baş vermiş, xüsusilə 2001–2010-cu illərdə tələbə sayı və qadınların iştirakı müntəzəm artmışdır. 2015-ci ildən sonra iqtisadi böhran və devalvasiya fonunda bəzi ailələr qadınların ali təhsilə çıxışını nisbətən məhdudlaşdırmış, mühafizəkar meyllər sosial-iqtisadi səbəblərlə əsaslandırılaraq daha rahat tətbiq edilmişdir. Bu dövrdə ailələr qız uşaqlarının təhsilini maliyyə yükü kimi görməyə başlamış və çox vaxt oğlan övladlarının təhsilini üstün tutmuşdur. Lakin pandemiya illəri bu tendensiyanı dəyişib: 2020-dən sonra qadınların ali təhsildə payı sürətlə artmağa başlayıb. Sosial təcrid və iqtisadi qeyri-sabitlik ailələrə göstərib ki, yalnız bir qazanc gətirən şəxsin işləməsi dayanıqlı ailə modeli yaratmır. Pandemiya dövründə iş yerlərinin itirilməsi və qadınların təhsilsizliyinin ailə gəlirlərinə mənfi təsiri barədə təcrübə ailələrin düşüncə tərzini dəyişib. 2020–2023-cü illərdə qadınların təhsildə payı 48,9%-dən 51,1%-ə qalxıb, bu da gender bərabərliyinə doğru ciddi dönüşdür. Bundan əlavə, həmin illərdə boşanma hallarının artması da ailələrə göstərib ki, qadınların təhsilli olması onların sosial və iqtisadi dayanıqlığı üçün həyati əhəmiyyət daşıyır.

Lakin bölgələr üzrə vəziyyət eyni deyil. Xüsusilə Cəlilabad rayonu kimi ənənəvi regionlarda qadınların təhsil və iş imkanları ciddi şəkildə məhdudlaşır. Məsələn, 2024-cü ildə Cəlilabaddan ali məktəblərə daxil olan abituriyentlərin cəmi 48%-i qızlardan ibarət olmuşdur ki, bu göstərici ölkə ortalamasından aşağıdır (Statistika Komitəsi,

2025). Bundan da düşündürücüsü, Cəlilabad rayonunda muzdlu işçilər arasında qadınların payı cəmi 36,2%-dir (ölkə üzrə orta 40,6% olduğu halda) (DSK, 2025). Bu statistik rəqəmlər Cəlilabad bölgəsində qadınların iqtisadi və sosial həyata inteqrasiyasının nə dərəcədə geridə qaldığını göstərir.

**Qrafik 2. 2025-ci il 1 yanvar vəziyyətinə muzdla işləyən qadınların payı, mülkiyyət növü üzrə (%)**




Qrafikdəki məlumatların təhlili göstərir ki, 2025-ci il vəziyyətinə Cəlilabad rayonunda muzdla işləyən qadınların payı 36,2% təşkil edir və bu göstərici region üzrə yalnız Yardımlı rayonundan irəlidədir. Bu nəticə Lənkəran-Astara iqtisadi rayonunun orta göstəricisindən və Azərbaycan üzrə ortalamadan xeyli aşağıdır. Əgər Lənkəranda qadınların payı 47,3%, Astarada 46,8% idisə, Cəlilabadda bu fərq kifayət qədər ciddi şəkildə hiss olunur. Qadınların məşğulluq səviyyəsinin bu qədər aşağı olması rayonun həm sosial, həm də iqtisadi strukturu ilə sıx bağlıdır. Dövlət sektorunda qadınların payı 43,3% olduğu halda, qeyri-dövlət sektorunda bu göstərici cəmi 21%-dir. Bu fakt onu göstərir ki, qadınların iş fəaliyyəti əsasən dövlət müəssisələri ilə məhdudlaşır. Bu vəziyyətin bir səbəbi rayonda özəl sektorun inkişaf səviyyəsinin aşağı olmasıdır. Qeyri-dövlət müəssisələrinin azlığı qadınların iş tapmaq imkanlarını məhdudlaşdırır və onları daha çox dövlət müəssisələrinə yönəldir.

Cəlilabad rayonu Azərbaycanın cənub bölgəsində yerləşir və qonşu rayonlarla müqayisədə qadınların cəmiyyətdəki rolunun daha ənənəvi çərçivədə qaldığı ərazilərdən hesab olunur. Rəsmi nikah yaşı qanunla 18 müəyyən edilsə də, praktikada rayonda qızların erkən yaşda nişanlanması və 18 yaşa çatan kimi ailə qurması adi hal almışdır. UNICEF məlumatlarına əsasən (UNICEF, 2023), Lənkəran-Astara iqtisadi-coğrafi bölgəsində (Cəlilabad da daxil olmaqla) 20–24 yaş arası qadınların 33,2%-i 18 yaşınadək ailə qurub. Bu, ölkə üzrə uşaq nikahlarının ən yüksək yayıldığı regionlardan biridir (Girls not brides, 2024).

Qadınların ailə daxilində təhsil və əmək hüquqlarının məhdudlaşdırılması Cəlilabad rayonunda təkcə fərdi hüquq problemi deyil, eyni zamanda ciddi sosial-iqtisadi məsələdir. Ənənəvi ailə mühitində qızların orta məktəbdən sonra təhsilə davam etməsinə qoyulan qadağalar onların gələcək sosial-iqtisadi fəalliyyət imkanlarını daraldır. Yəni, gənc qadınlar peşə və karyera qura bilmədən, maddi cəhətdən asılı vəziyyətdə qalırlar. Bu yanaşma bütövlükdə regionun insan kapitalını

zəiflədir, qadınların cəmiyyətə töhfə vermək potensialını reallaşdırmasına mane olur. İşləmək istəyən qadınlar çox zaman ailə tərəfindən mənfi reaksiya və təzyiqə məruz qalır, eləcə də rayon şəraitində qadınlar üçün uyğun iş yerlərinin azlığı vəziyyəti daha da mürəkkəbləşdirir. Bunun nəticəsində Cəlilabad cəmiyyətində gender bərabərsizliyi dərinləşir, ailələrin rifahı və inkişaf perspektivləri də məhdudlaşır.

Beynəlxalq təcrübə göstərir ki, qadınların təhsildən və əmək fəaliyyətindən kənarda qalması təkcə onların hüquqlarını pozmur, həm də yerli icmanın davamlı inkişafını ləngidir. Dünya Bankının hesablamalarına görə, qızların orta məktəbdə əlavə hər təhsil ili uşaq nikahı ehtimalını orta hesabla 6 faiz bəndi azaldır (Girls not brides, 2024). Yəni, qızların məktəbdə qalması həm onların daha gec yaşda ailə qurmasına, həm də daha səriştəli və müstəqil fərd olaraq yetişməsinə gətirib çıxarır. Təəssüf ki, Cəlilabad kimi ənənəvi bölgələrdə qızların təhsildən kənarlaşdırılması və erkən nikah praktikasının davam etməsi bu müsbət effekti gerçəkləşdirməyə mane olur. Qadınların cəmiyyətdən təcrid olunması və potensialının boşa çıxması uzunmüddətdə regionda sosial-iqtisadi inkişafın ləngiməsi, yoxsulluğun və asılılığın nəsildən-nəslə ötürülməsi kimi nəticələr doğura bilər.

Yuxarıda təsvir olunan vəziyyət on minlərlə qadının həyat seçimlərini məhdudlaşdırdığı üçün cəmiyyət arasında narazılıq da doğurur. Son illərdə həm dövlət qurumları, həm də qeyri-hökumət təşkilatları problemin həlli üçün müəyyən təşəbbüslər göstərməyə başlayıblar. Məsələn, Qadın Problemlərinin Tədqiqatları Mərkəzi Cəlilabadda erkən nikah və qızların təhsildən yayınmasının qarşısını almağa dair maarifləndirici tədbir keçirmiş, valideynlər və yeniyetmələrlə görüşlər təşkil etmişdir. UNDP də Cəlilabad rayonunu peşə təhsili layihələri üçün pilot region olaraq seçmiş və məktəbdən işə keçidə dəstək verən proqramlar tətbiq etməyə başlamışdır (UNDP, 2019). Lakin bu kimi addımlar hələlik problemi tam həll edəcək səviyyədə deyil. Məhz buna görə də, Cəlilabad rayonunda qadınların təhsil və əmək hüquqlarının məhdudlaşması probleminin dərin təhlili və effektiv həll yollarının araşdırılması aktual və vacibdir. Bu tədqiqat mövzusu həm regional inkişaf, həm də gender bərabərliyi kontekstində böyük əhəmiyyət daşıyır.

Bu tədqiqatın əsas məqsədi Cəlilabad rayonunda qadınların təhsildən kənarda qalması və iş həyatında zəif təmsilçiliyinin səbəblərini araşdırmaq, problemin sosial-iqtisadi təsirlərini dəyərləndirmək və ədalətli həll yolları təklif etməkdir.

**Metodologiya**

Bu tədqiqatda statistik təhlil, sorğu və müsahibə metodlarından istifadə edilmişdir. Statistik təhlil metodu ikinci verilənlərin təhlili üçün istifadə edilmiş və bunun üçün Dövlət Statistika Komitəsinin veb səhifəsindən ictimaiyyətə açıq olan verilənlər toplanmışdır. Bu verilənlərin istifadəsində olan məhdudiyyətlər ondan ibarətdir ki, bəzi göstəricilər rayonun ümumi reallığından nisbətən kənarlaşır və ona görə də təkcə statistik təhlil araşdırmamızın tezisini isbatlamağa bizi yetərli faktlarla təmin etməmişdir. Bunun üçün də biz paralel olaraq ilkin verilənlərin toplanması üzərində də işləmişik. Bunun üçün isə sorğu və müsahibə metodlarından istifadə edilmişdir. Sorğu vasitəsilə biz Cəlilabad rayonunda qadınların təhsil və əmək hüquqlarının hansı səviyyədə reallaşdığını və bu hüquqların ailə və cəmiyyət daxilində hansı sosial maneələrlə məhdudlaşdırıldığını öyrənmiş olduq. Sorğu nəticələri vasitəsilə qadınların təhsil almağa və işləməyə münasibətləri, ailə və icma daxilində bu məsələlərə dair formalaşmış stereotiplər müəyyən edilmişdir. Sorğu bizə ailə daxilində qərarvermə mexanizmlərinin qadınların təhsil və iş seçimlərinə necə təsir etdiyini qiymətləndirməyə imkan vermişdir. Sorğu vasitəsilə ailələrin erkən nikah, təhsildən yayınma və qadın məşğulluğuna dair mövqeləri və onların dəyişmə potensialı da öyrənilmişdir.

Mövcud problemin daha dərindən araşdırılması üçün tədqiqatda həm keyfiyyət, həm də kəmiyyət üsullarının sintezindən istifadə olunmuşdur. İlkin mərhələdə statistik məlumatların icmalı aparılsa da, əsas empirik məlumatlar sahə tədqiqatından toplanılmışdır. Bunun üçün sorğu (anket) tədqiqatı və yarı-strukturlaşdırılmış müsahibə metodlarından istifadə olunmuşdur. Sorğu onlayn formada (Google Forms) və kağız daşıyıcıda Cəlilabad rayonu üzrə 78 qadın respondent arasında keçirilmişdir. Respondentlər birbaşa hüquqları məhdudlaşdırılan qadınlar ola bilməsə də (onlarla ünsiyyət çətin olduğu və onların sorğudan anlayışları olmadığı üçün), onların həmyaşıdları və tanışları arasından seçilmişdir. Bu yolla problemin dolayısı ilə də olsa səbəbləri və mümkün həlləri barədə qismən məlumat əldə etmək mümkün olmuşdur. Müsahibə isə Cəlilabad rayonundan olan və mövzu üzrə məlumatlı hesab edilən bir ekspert şəxs ilə aparılmışdır. Bu məqsədlə Azərbaycan Universitetinin müəllimi, 29 yaşlı fəlsəfə doktoru (PhD) namizədi Məhəmməd Mustafayev müsahib kimi seçilmiş və müsahibə təşkil edilmişdir.

Appendiksdə tədqiqat üçün tərtib edilmiş sorğu sualları və müsahibə istiqamətverici sualları təqdim olunmuşdur. Sorğu anketində 5 demoqrafik sual, 5 əsas tədqiqat sualı və qadınların mövzu ilə bağlı mövqeyini qiymətləndirməyə dair 5 Laykert şkalalı ifadə yer almışdır. Bütün anket sualları qapalı tipli olmuş, müvafiq cavab variantları təqdim edilmişdir. Likert formatlı ifadələr üzrə iştirakçılar 5 ballıq şkala (1 – heç razı deyiləm, 5 – tam razıyam) ilə öz razılıq dərəcələrini bildirmişdilər. Müsahibə sualları isə açıq tipli olmuş, müsahiblə geniş söhbət aparmağa imkan verəcək şəkildə hazırlanmışdır.

## Layihə strukturunun qısa təsviri

Layihənin strukturu mövzunun məntiqinə uyğun olaraq beş əsas fəsildən ibarətdir və hər fəsil əvvəlkinin üzərində qurulmuşdur. Məqsəd girişdən başlayıb, problemin səbəblərini, empirik nəticələri, siyasət alternativlərini və yekun tövsiyələri ardıcıl şəkildə göstərməkdir.

I fəsil giriş hissəsidir və burada tədqiqatın aktuallığı, məqsədi, sualları, obyekti və predmetinin izahı, həmçinin Cəlilabad rayonu üzrə problemin statistik və kontekstual əsaslandırılması verilmişdir.

II fəsildə problemin yaranma səbəbləri və mövcud vəziyyət təhlil olunmuş, Cəlilabadda qadınların təhsil və əmək hüquqlarını məhdudlaşdıran sosial, mədəni, iqtisadi və hüquqi amillər sistemli şəkildə şərh edilmiş və burada həm yerli, həm də beynəlxalq ədəbiyyata istinad edilmiş və nəzəri çərçivə qurulmuşdur ki, sonrakı empirik hissənin interpretasiyası üçün əsas yaransın.

III fəsil sahə tədqiqatının – sorğu və müsahibənin – nəticələrini əhatə edir və “Araşdırma nəticələri və onların müzakirəsi” kimi çıxış etmişdir: bu fəsildə sorğu göstəriciləri, müsahibə nəticələri əsasında problemin necə təzahür etdiyi, həmçinin bu nəticələrdən çıxış edərək formalaşdırılan əsas siyasət alternativləri təqdim olunmuşdur.

IV fəsildə üçüncü fəsildə irəli sürülən həll istiqamətlərinin analitik qiymətləndirilməsi aparılmışdır. Hər əsas siyasət variantı beş meyar üzrə (effektivlik, resurs tələbi, icra imkanı, ictimai qəbulolunma, sosial ədalət) ayrıca müzakirə olunmuş və nəticədə daha üstün hesab edilən alternativ əsaslandırılmışdır.

V fəsil “Nəticə və tövsiyələr” adlanır və tədqiqatın ümumi xülasəsini, əsas elmi qənaətləri və konkret siyasət tövsiyələrini sistemləşdirilmiş şəkildə təqdim etmişdir. Burada həm qısamüddətli, həm də uzunmüddətli addımlar üzrə, müvafiq dövlət və yerli institutlara ünvanlanan təkliflər qısa və aydın şəkildə ifadə olunmuşdur.

## FƏSİL 2. CƏLİLABADDA GENDER MÜNASİBƏTLƏRİNİN FORMALAŞMA DİNAMİKASI VƏ AİLƏDAXİLİ QƏRARVERMƏ MEXANİZMLƏRİNİN QADINLARIN TƏHSİL VƏ MƏŞĞULLUĞUNA TƏSİRİ VƏ MÖVCUD VƏZİYYƏT

Cəlilabad rayonunda qadınların təhsil və əmək hüquqlarının məhdudlaşdırılması tək bir səbəbin deyil, uzun illər formalaşmış sosial, iqtisadi və mədəni faktorların birləşməsinin nəticəsidir. Rayonun kənd və qəsəbə mühitində patriarxal münasibətlər, ənənəvi ailə qaydaları və "camaat nə deyər" kimi sosial nəzarət mexanizmləri qadınların həyat seçimlərini ciddi şəkildə daraldır. Bu mühitə iqtisadi çətinliklər, iş imkanlarının məhdudluğu və erkən nikah praktikasının davam etməsi də əlavə olunduqda, qadınların təhsilə davam etməsi və əmək bazarına daxil olması daha da çətinləşir. Mövcud vəziyyəti dəqiq anlamaq üçün bu səbəblərin hər birini ayrıca araşdırmaq zəruridir.

Cəlilabad rayonunda gender münasibətlərinin gələcəkdə daha bərabər əsaslarla formalaşması üçün ailə institutunun daxilində qadının rolunun yenidən dəyərləndirilməsi vacibdir. Qadınların yalnız evdarlıqla məhdudlaşdırılmış roldan çıxaraq sosial və iqtisadi həyatda daha aktiv iştirakçıya çevrilməsi üçün həm dövlət, həm icma, həm də ailə səviyyəsində çoxşaxəli tədbirlərə ehtiyac var.

### 2.1. Aşağı sosial iqtisadi vəziyyət və iş imkanlarının məhdudluğu

Qadınların təhsildən yayınmasına təsir edən amillərdən biri məhz ailələrin iqtisadi durumudur. Aztəminatlı ailələr bəzən qız övladının uzun müddət oxumasını əlavə maliyyə yükü kimi görürlər və erkən nikahı onun üçün daha yaxşı təminat yolu hesab edirlər. "Girls Not Brides" tərəfindən qeyd olunur ki, müstəqillik dövründə Azərbaycanda yoxsulluq və sosial çətinliklər bəzi valideynləri qızlarını daha varlı hesab etdikləri ailələrə ərə verməyə sövq edir – bununla onlar qızlarının daha firavan həyatı olacağına ümid edirlər (Girls not Brides, 2024). Cəlilabad kimi bölgələrdə kənd təsərrüfatına əsaslanan iqtisadiyyat şəraitində qadınlar üçün maaşlı iş yerləri məhduddur. Yuxarıda göstərilən statistikaya görə, rayonda rəsmi qeydiyyatda olan muzdluların cəmi ~36%-nin qadın olması da bunu təsdiqləyir. Qadın məşğulluğunun belə aşağı səviyyədə olması bir tərəfdən qadınların təhsilə marağını azalda bilər: əgər ali təhsilli belə olsalar, doğma rayonlarında iş tapa bilməyəcəklərini görürlərsə, həm gənc qızlar, həm də onların valideynləri üçün oxumağın mənası azalır.

Tədqiqat çərçivəsində Cəlilabad rayonunda yaşayan 78 qadın arasında sorğu keçirilmişdir. Respondentlərin yaş göstəricilərinə əsasən, əksəriyyətini orta yaşlı qadınlar təşkil edir (Cədvəl 2.1.1.). Sorğuda iştirak edən qadınların təxminən üçdə ikisi 35-44 yaş aralığındadır (69.2%). Daha az sayda respondent 25-34 yaş (19.2%) və 18-24 yaş (6.4%) qruplarına aid olub. Yalnız 5.1%-i 45-54 yaş aralığındadır. Bu nəticə onu göstərir ki, sorğuda əsasən gənc və orta yaşlı nəsil qadınlar iştirak edib. Bu yaş tərkibi seçilmiş mövzu üçün uyğundur, çünki məhz bu yaş qrupundakı qadınlar təhsilini davam etdirmə və əmək fəaliyyətinə atılma qərarlarında aktiv rol oynayırlar.

**Cədvəl 2.1.1. Respondentlərin yaş qrupları üzrə bölgüsü**

| Yaş aralığı | Say (n) | Faiz (%) |
|---|---|---|
| 18-24 yaş | 5 | 6.4 |
| 25-34 yaş | 15 | 19.2 |
| 35-44 yaş | 54 | 69.2 |
| 45-54 yaş | 4 | 5.1 |

Respondentlərin ailə vəziyyəti strukturunda üstünlük təşkil edən qrup evli qadınlardır. Sorğuda iştirak edənlərin 79.5%-i rəsmi nikahda, 17.9%-i subay, cəmi

2.6%-i isə boşanmışdır (Cədvəl 2.1.2). Boşanmış qadınlar çox cüzi faiz təşkil edir ki, bu da region üçün boşanmanın hələ nadir hal olmasına işarədir.

**Cədvəl 2.1.2. Respondentlərin ailə vəziyyətinə görə bölgüsü**

| Ailə vəziyyəti | Say (n) | Faiz (%) |
|---|---|---|
| Subay | 14 | 17.9 |
| Evli | 62 | 79.5 |
| Boşanmış | 2 | 2.6 |

Sorğu iştirakçılarının təhsil səviyyəsi ümumiyyətlə kifayət qədər yüksəkdir. Respondentlərin 64.1%-i ali bakalavr təhsili alıb, əlavə 16.7%-i magistr və ya daha yuxarı dərəcəyə malikdir (Cədvəl 2.1.3). Yalnız 6.4% tam orta təhsillidir, 10.3% isə orta ixtisas (kollec) təhsili alıb. Cəmi 2 nəfər (2.6%) 9 illik və ya daha aşağı təhsillidir.

**Cədvəl 2.1.3. Respondentlərin təhsil səviyyəsi üzrə bölgüsü**

| Təhsil səviyyəsi | Say (n) | Faiz (%) |
|---|---|---|
| Tam orta təhsil (11 illik məktəb) | 5 | 6.4 |
| Orta ixtisas təhsili (kollec) | 8 | 10.3 |
| Bakalavr təhsili | 50 | 64.1 |
| Magistr və ya daha yüksək | 13 | 16.7 |
| Heç biri (9 illik və ya aşağı təhsil) | 2 | 2.6 |

Respondentlərin məşğulluq durumuna baxdıqda isə onların təxminən yarısının hazırda əmək fəaliyyətində olduğu görünür.

**Cədvəl 2.1.4. Respondentlərin məşğulluq statusu üzrə bölgüsü**

| Məşğulluq statusu | Say (n) | Faiz (%) |
|---|---|---|
| İşsiz (iş axtarır) | 11 | 14.1 |
| Evdar (işləmir, ev təsərrüfatı ilə məşğuldur) | 4 | 5.1 |
| Tələbə | 5 | 6.4 |
| Muzdlu işçi (əmək haqqı ilə çalışan) | 32 | 41.0 |
| Frilanser (müstəqil işləyən) | 6 | 7.7 |
| Sahibkar (özünüməşğul, biznes sahibi) | 20 | 25.6 |

Belə ki, qadınların 41.0%-i muzdlu işçi (yəni hansısa təşkilatda çalışır), 25.6%-i sahibkardır (öz işi var). Bu göstəricilər Cəlilabad qadınları arasında iqtisadi fəallığın müəyyən qədər mövcud olduğunu göstərir. Respondentlərin yarıdan bir qədər çoxunun (təxminən 58%-nin) işsiz olması və ya evdar/tələbə olması isə hələ xeyli qadının müxtəlif səbəblərdən əmək bazarından kənarda qaldığına işarədir. Xüsusilə evdar olan 5.1% qadın muxtariyyətli şəkildə ev işləri ilə məşğuldur və heç bir qazanc əldə etmir. Bu nisbət kiçik görünsə də, regionun ümumi mənzərəsində qadınların evdar qalması daha geniş yayılmış ola bilər. Məsələn, müsahibimizin sözlərinə görə kənd yerlərində uzun illər qadınların işləməsi nadir hal idi: "Uzun illər boyunca rayonun iş yerlərində qadın işçiyə rast gəlmək müşkül məsələ idi… demək olar ki, ancaq kişilər idi əsas işçi qüvvəsi (Gender məsələləri üzrə ekspertlə müsahibə, 10 Noyabr, 2025-ci il)". Bu ifadə sorğuya cəlb olunmayan digər qadınların da böyük qisminin evdar qaldığını, işləmədiyini göstərir.

**Cədvəl 2.1.5. Respondentlərin yaşadığı yerə görə bölgüsü**

| Yaşayış yeri | Say (n) | Faiz (%) |
|---|---|---|
| Cəlilabad şəhər mərkəzi | 11 | 14.1 |
| Kənd | 6 | 7.7 |
| Cavab vermək istəmirəm | 61 | 78.2 |

Nəhayət, sorğuda respondentlərdən yaşadıqları mühit soruşulub. Məlum olub ki, qadınların yalnız kiçik bir qismi özünü kənd sakini kimi təqdim edib (7.7%), 14.1%-i Cəlilabad şəhər mərkəzində yaşadığını bildirib (Cədvəl 2.1.5). Bəzi iştirakçılar Cəlilabadda doğulub boya-başa çatsalar da, hazırda ölkənin digər bölgələrində yaşayırlar və sorğunu onlayn doldurarkən "cavab vermək istəmirəm" seçimini ediblər. Müsahibimizin qeyd etdiyi kimi, "daha rasional düşünə bilən insan oranı tərk edir" (Gender məsələləri üzrə ekspertlə müsahibə, 10 Noyabr, 2025-ci il), yəni sosial mühitdən narazı qalan bir çox cavanlar rayonun kəndlərini, hətta rayonun özünü tərk edib daha böyük şəhərlərə köçürlər. Bu fikir sorğu iştirakçılarının coğrafi yayılması ilə də bilavasitə əlaqəli ola bilər. Hər bir halda, alınan cavablar əsasında demək olar ki, respondetlərin təxminən beşdə biri hazırda Cəlilabad rayonunun özündə yaşayır (əsasən şəhərdə), qalanları isə ya bu məlumatı gizli saxlayıb, ya da rayon hüdudlarından kənardadır.

Tədqiqat suallarımızdan ikincisi Cəlilabad rayonunda qadınların iş həyatında az iştirak etməsinin səbəblərini araşdırmaq idi. Sorğuya qatılan qadınlardan "Sizcə, Cəlilabad rayonunda qadınların iş həyatında az iştirak etməsinin başlıca səbəbi hansıdır?" deyə soruşulub. Ən çox qeyd olunan səbəb "rayonda qadınlar üçün iş yerlərinin az olması"dır – 30.8%. Yəni, üç respondentdən biri düşünür ki, əslində qadın işləmək istəsə belə, bölgədə uyğun iş imkanları qıt olduğu üçün onların iş həyatına qatılması çətinləşir. İkinci sırada "qadının evdar olmalı olduğu" barədə stereotip düşüncə gəlir (25.6%). Cəmiyyətdə mövcud olan "qadın işləməsə yaxşıdır, əsas işi evdir" kimi patriarxal qənaət respondentlərin dörddə biri tərəfindən əsas səbəb kimi göstərilib.

**Cədvəl 2.1.6. Qadınların iş həyatında az iştirak etməsinin başlıca səbəbi**

| Səbəb (Cəlilabad rayonunda qadınlar niyə az işləyir?) | Say (n) | Faiz (%) |
|---|---|---|
| "Qadın gərək evdar olsun" düşüncəsi (stereotipik gözlənti) | 20 | 25.6 |
| Qadınlar üçün iş yerlərinin az olması (rayon üzrə) | 24 | 30.8 |
| Qadınların lazımi təhsil və ixtisasa sahib olmaması | 19 | 24.4 |
| Ərlərin/ailənin qadına işləməyə icazə verməməsi | 10 | 12.8 |
| Digər | 5 | 6.4 |

Respondentlərin üçdə biri hesab edir ki, rayon iqtisadi baxımdan elə zəifdir ki, orada qadınlar üçün uyğun iş tapmaq müşkül məsələdir. Bu fikir obyektiv gerçəkliyə əsaslanır. Həqiqətən də, Cəlilabad ölkənin iqtisadi cəhətdən o qədər də inkişaf etməmiş bölgələrindən biridir və sənaye, turizm kimi sektorlarda iş imkanları məhduddur. Nəticə etibarilə, kişilər belə iş tapmaqda çətinlik çəkirlər, qadınlar üçün isə daha da az seçim qalır. Dövlət Statistika Komitəsinin məlumatlarına görə 2025-ci ildə Cəlilabadda muzdlu işçilər arasında qadınların payı cəmi 36.2% olub – yəni iş yerlərinin böyük əksəriyyətində kişilər çalışır. Qonşu rayonlar Masallı (37.5%) ilə bənzər göstərici Cəlilabadda müşahidə olunur, amma Lerik (42.8%) və Lənkəranda (47.2%) qadınların payı nisbətən yüksəkdir. Bu fakt onu göstərir ki, Cəlilabadın əmək bazarında qadınlar xüsusilə az təmsil olunur və iş yerlərinin azlığı ümumi bir problemdir.

**Cədvəl 2.1.7. “Qadının əsas rolu ailədə evdar qalmaqdır, karyera o qədər də vacib deyil”** ifadəsinə münasibət

| Rəylər (Likert) | Say (n) | Faiz (%) |
|---|---|---|
| 1 | 42 | 53.8 |
| 2 | 10 | 12.8 |
| 3 | 9 | 11.5 |
| 4 | 2 | 2.6 |
| 5 | 15 | 19.2 |

Sorğuda qadınların iş imkanları ilə bağlı digər bir mühüm məqam kənd yerlərində infrastruktur məsələsinə dair idi. “Kənd yerində yaşayan qadınlar üçün işləmək imkanı çox məhduddur, ona görə də əksər qadınlar evdar qalmağa məcburdur” fikri ilə bağlı soruşduğumuz suala böyük əksəriyyət razılaşdı. Respondentlərin 34.6%-i tam razıdır, 24.4%-i qismən razıdır. Problemi düzgün dəyərləndirirlər: həqiqətən də, əyalətdə qadın üçün uyğun sahələr çox azdır və buna görə bir çox qadınlar istəsələr belə işləyə bilmirlər. Bu reallıq beynəlxalq tədqiqatlarda da vurğulanır. Məsələn, Agénor (2023) qeyd edir ki, qadınların məşğulluğunu artırmaq üçün onların infrastruktur və ictimai resurslara çıxışını yaxşılaşdırmaq vacibdir – ictimai nəqliyyat, uşaq baxçası, mədəni məkanlar kimi amillər olduqda qadınlar evdən çıxıb işləməyə daha çox cəlb olunurlar. Cəlilabad kimi ucqar bölgələrdə məhz bu infrastrukturlar çox zəifdir və nəticədə qadınlar cəmiyyətdən təcrid olunur. Müsahibimiz də bu barədə danışır: “Cəlilabadın şəhər mərkəzi ilə kəndləri kəskin fərqlənir… Kəndlərdə qadının həyətyanı sahəni tərk etməyinə belə icazə vermirlər (Gender məsələləri üzrə ekspertlə müsahibə, 10 Noyabr, 2025-ci il)”. Bu, infrastruktur yoxluğu ilə yanaşı, qapalı sosial mühit məsələsini də göstərir. Yəni, kəndlərdə nəinki iş yeri, heç qadınların asudə vaxt keçirə biləcəyi, ünsiyyət quracağı ictimai məkanlar belə yoxdur. Bu, yenə qadının inkişafını əngəlləyən bir faktordur və nəticədə evdən çıxmayan qadın həm təhsildən, həm işdən uzaq qalır.

**Cədvəl 2.1.8. “Kənd yerində qadınlar üçün işləmək imkanı çox məhduddur, ona görə də əksər qadınlar evdar qalmağa məcburdur”** ifadəsinə münasibət

| Rəylər (Likert) | Say (n) | Faiz (%) |
|---|---|---|
| 1 | 10 | 12.8 |
| 2 | 12 | 15.4 |
| 3 | 10 | 12.8 |
| 4 | 19 | 24.4 |
| 5 | 27 | 34.6 |

Ümumilikdə, qadınların məşğulluğu ilə bağlı apardığımız təhlillərdən belə nəticə çıxır ki, sosial baryerlər (mentalitet, ailə qadağaları) və iqtisadi baryerlər (işsizlik, infrastrukturun olmaması) kompleks şəkildə qadınların iş həyatından kənarda qalmasına yol açır. Sorğu nəticələrimiz bu iki istiqaməti dəstəklədi: Bir tərəfdən “qadın evdar olmalıdır” kimi köhnə fikirlərə hələ rast gəlinir, digər tərəfdən real iqtisadi şərait də problemlidir. Müsahibə materialında qadınların bir çoxunun bu səbəblərə görə kəndləri tərk etməsi vurğulanır: “Həm qadınların, həm kişilərin kəndlərdən köçmə səbəblərindən başlıcası sosial faktordur… Qadınlar müstəqil qərar verə bilmək üçün ordan köçürlər”. Deməli, kim ki imkanı var, konservativ mühiti tərk edir; imkanı olmayanlar isə orada qalıb həmin qaydalara uymalı olurlar. Bu vəziyyət uzun müddətdə kənd cəmiyyətinin demoqrafik və sosial strukturuna da təsir edir – əmək qabiliyyətli, nisbətən təhsilli gənclər kənara axır, geridə daha çox mühafizəkar əhali qalır və problem davam edir.

### 2.2. Qız uşaqlarının natamam orta təhsili və nəzarət mexanizmlərinin olmaması

Cəlilabad rayonundakı gender dinamikasını daha dərindən anlamaq üçün təkcə mövcud statistik mənzərə deyil, həm də regionun tarixi formalaşma prosesi, sosial strukturun uzun illər ərzində necə sabitləşdiyi və ailə institutunun necə güclü normativ çərçivə yaratdığı ayrıca nəzərdən keçirilməlidir. Rayonun kəndlərində dominant olan geniş ailə modeli özündə həm iqtisadi, həm də mədəni funksiyalar daşıdığı üçün qızların təhsili və qadınların məşğulluğu məsələsində qərarlar yalnız valideynlərə məxsus olmur; nənə-baba, əmi-dayı, hətta qonşu kimi sosial aktorların da təsiri açıq-aşkar hiss edilir. Bu cür kollektiv qərar sistemi fərdin arzu və məqsədlərindən üstün tutulur və belə şəraitdə gənc qızın təhsil arzusunun reallaşması ciddi baryerlərlə qarşılaşır. Kənd yerlərində sosial münasibətlər “hamı hamını tanıyır” prinsipi ilə formalaşdığı üçün bir ailənin davranışı, tərbiyə modeli yaxından izlənir və bir ailənin qızının 18 yaşdan sonra oxumağa davam etməsi belə müzakirə mövzusuna çevrilə bilir. Bu müzakirə bəzən tənqid, bəzən ironiya, bəzən isə “yolundan çıxar” kimi ifadələrlə müşayiət olunur ki, bu da ailənin təhsil qərarına birbaşa təsir edir.

Ənənəvi normalardan danışarkən, Cəlilabadda qadının evdəki roluna dair təsəvvürlərin formalaşmasını anlamaq vacibdir. Bu təsəvvürlər təkcə sosial ənənələrdən deyil, həm də tarixi əmək bölgüsündən qaynaqlanır. Rayonda uzun illər əsas gəlir mənbəyi kənd təsərrüfatı olub və əmək bölgüsündə kişi fiziki işlərin böyük hissəsini yerinə yetirdiyi halda, qadın ev təsərrüfatı, ailə qayğıları, heyvan baxımı kimi “görünməyən əməyin” daşıyıcısına çevrilib. Bu əməyin formal dəyəri olmadığı üçün qadının iqtisadi töhfəsi nəzərə alınmayıb və ailə daxilində onun rəyinin dəyəri də buna paralel olaraq aşağı qiymətləndirilib. Nəticədə ailə quruluşunda kişi qərar verən, qadın isə qərarı icra edən kimi qavranılıb. Bu model 1990-cı illərdən sonra ölkədə təhsil və məşğulluğun diversifikasiyası artsa da, Cəlilabadda əvvəlki gücünü müəyyən dərəcədə qoruyub.

Valideynlər qız uşağının təhsilinə sanki “riskli investisiya” kimi baxır və “onsuz da gedib başqasının evini idarə edəcək” deyə düşünürlər. Bu düşüncə tərzi qız uşağının uzunmüddətli təhsil planını ailə üçün yük kimi göstərir. Halbuki oğlan uşağının oxuması “ailəyə sərmayə” kimi qiymətləndirilir. Bu ayrı-seçkilikli yanaşma qəlibləşmiş gender rollarından doğur və qızların təhsil hüququnun məhdudlaşdırılmasının kökündə məhz bu praqmatik yanlış inanclar dayanır. Daha maraqlısı odur ki, bəzi ailələr qızlarını oxutmağın “öz reputasiyalarına uyğun gəlmədiyini” belə düşünə bilir.

Cəlilabadın bəzi kəndlərində qızların orta məktəbdə iştirakı IX sinifdən sonra kəskin azalır. Müəllimlərlə aparılmış qeyri-rəsmi söhbətlər göstərir ki, X və XI siniflərdə qızların sayı bəzən 1–2 nəfər səviyyəsinə düşür, bəzi kəndlərdə isə ümumiyyətlə qız olmur. Bu, təkcə gender bərabərsizliyi göstəricisi deyil; bu, həm də regionun insan resurslarının itirilməsi deməkdir. Qızların 15–17 yaş aralığında təhsildən ayrılması onların gələcək 40 ilinin iqtisadi, sosial və psixoloji taleyini əvvəlcədən müəyyən etmiş olur.

Erkən nikahlarla bağlı vəziyyət isə mövcud reallığı daha da aydın göstərir. 2023-cü il UNICEF məlumatına görə, Lənkəran-Astara bölgəsində 20–24 yaşlı qadınların 33,2%-i 18 yaşınadək ailə həyatı qurub. Bu göstərici təkcə statistika deyil; bu, qızların uşaqlıqdan yetişkinliyə keçidinin zorla sürətləndirildiyini göstərən sosial strukturun nəticəsidir. Qızlar çox vaxt 14–16 yaşlarında nişanlanır və bu nişanlanma faktı artıq məktəb həyatını bitirən siqnala çevrilir. Ailə qızın “nişanlı” statusunda məktəbə davam etməsini düzgün hesab etmir və dərhal sosial məhdudiyyətlər tətbiq edilir. Beləcə, qızın təhsil arzusu hələ onun yetkinlik yaşına çatmasına bir neçə il qalmış dayandırılır.

İqtisadi amillər isə sosial amilləri qidalandıran əlavə qatdır. Cəlilabad kənd təsərrüfatı rayonudur və burada əsas gəlir mənbəyi mövsümi işlərdir. Özəl sektor son illərdə cüzi inkişaf etsə də, qadınlar üçün genişsahəli iş imkanları demək olar yaradılmayıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, rayonda rəsmi muzdlu

iş yerlərində qadınların payı cəmi 36,2%-dir. Halbuki Lənkəranda bu göstərici 47,3%, Astarada 46,8%-dir. Bu fərq təsadüfi deyil; bu, regionun struktur iqtisadiyyatının qadınlar üçün əlçatan olmamasının nəticəsidir. Üstəlik, ailələr də özəl sektoru "etibarsız və təhlükəli mühit" kimi qavradığı üçün qadınlar daha çox dövlət sektorunda – məktəb, xəstəxana, icra strukturları kimi yerlərdə çalışır. Bu sahələrdə boş yer azdır və maaşlar aşağıdır. Bu isə qadınların həm iqtisadi gücünü, həm də ailə qarşısında danışıqlıq gücünü zəif saxlayır.

Cəlilabad rayonunda qızların orta təhsildən (yəni 9-11-ci siniflərdən sonra) sonra təhsilini davam etdirməməsinin əsas səbəbləri sorğunun mühüm suallarından biri olmuşdur. Respondentlərə "Sizcə, Cəlilabad rayonunda qızların orta təhsildən sonra təhsilini davam etdirməməsinin əsas səbəbi nədir?" sualı verilib. Bu sualda beş cavab variantı təqdim olunub: (a) valideynlərin icazə verməməsi (ənənəvi düşüncə), (b) erkən nişanlanma və nikah, (c) maddi çətinlik (ailənin imkanı olmaması), (d) qızların özlərinin maraq göstərməməsi, (e) digər. Cədvəl 2.2.1-də bu suala verilən cavabların bölgüsü göstərilib. Nəticələrə əsasən, respondentlərin ən böyük hissəsi qızların təhsildən yayınmasını maddi imkansızlıqla əlaqələndirir: iştirakçıların 33.3%-i "ailənin maddi çətinliyi" seçimini işarələyib. İkinci yerdə çox cüzi fərqlə valideynlərin ənənəvi səbəblərlə qızları oxumağa qoymaması dayanır (30.8%). Yəni, üç respondentdən biri hesab edir ki, ailələrin düşüncəsi ("qız uşağı uzağa oxumağa getməsin" kimi fikirlər) qızların ali təhsil almasına mane olur. Üçüncü əsas səbəb kimi 23.1% respondent erkən nişanlanma və nikah faktorunu qeyd edib. Bu o deməkdir ki, hər dörd nəfərdən biri qızların erkən ailə qurmağa məcbur edildiyinə görə təhsillərini yarımçıq saxladıqlarını düşünür.

**Cədvəl 2.2.1. Qızların ümumi orta təhsil pilləsindən sonra ali təhsilə davam etməməsinin əsas səbəbi**

| Səbəb (Cəlilabad rayonunda qızlar niyə oxumur?) | Say (n) | Faiz (%) |
|---|---|---|
| Valideynlərin icazə verməməsi (ənənəvi düşüncə) | 24 | 30.8 |
| Erkən nişanlanma və nikah | 18 | 23.1 |
| Maddi çətinlik (ailənin imkanı olmaması) | 26 | 33.3 |
| Qızların özlərinin maraq göstərməməsi | 2 | 2.6 |
| Digər | 8 | 10.3 |

Bu nəticələrdən göründüyü kimi, maddi səbəblər və sosial-mədəni səbəblər (ənənəvi düşüncə və erkən nikah) rəyi soruşulanlar arasında ən çox rast gəlinən izahlardır. Ümumiyyətlə, qeyd etməliyik ki, 2024-cü ildə tam orta məktəbi bitirənlərin sayı 100118 nəfər olmuşdur (DSK, 2025). Təəsüf ki, onlardan neçəsinin qızlar olması barəsində heç bir statistik məlumat tapılmadı. Buna görə də sorğu nəticələrimizi ikinci verilənlərlə təsdiqləmək mümkün deyil.

Gördüyümüz kimi, təxminən üçdə iki respondent bu iki qrup səbəbi (maddi və ya ənənəvi) əsas görür. Nəticələri qrup halında təhlil etsək, 24 nəfərin göstərdiyi valideynlərin ənənəvi düşüncəsi və 18 nəfərin qeyd etdiyi erkən nikah faktorlarını birlikdə sosial-mədəni maneələr kateqoriyasına aid etmək olar. Belə olduqda, ümumilikdə 42 respondent (53.8%) qızların təhsildən yayınmasını sosial səbəblərlə izah edir. İqtisadi səbəb kimi maddi imkansızlığı göstərən 26 nəfər isə 33.3% təşkil edir. Cəmi 2.6% qızların öz istəksizliyini səbəb sayıb ki, bunu fərdi səbəb kimi qiymətləndirmək olar. 10.3% "digər" deyənlərin fikirləri məlum olmasa da, onlar da göstərilən kateqoriyalardan birinə aid ola bilər. Bu qruplaşdırma göstərir ki, ümumilikdə respondentlərin yarıdan çoxu problemi cəmiyyətin düşüncə tərzi və adət-ənənələri ilə əlaqələndirir, təxminən üçdə biri isə problemi iqtisadi resurs çatışmazlığında görür (Cədvəl 2.2.2). Bu mühüm nəticə nəzəri baxımdan vacibdir: Ədəbiyyatda da qeyd olunduğu kimi, gender stereotipləri və iqtisadi çətinliklər inkişaf etməkdə olan

cəmiyyətlərdə qızların təhsil imkanlarını məhdudlaşdıran başlıca faktorlar kimi göstərilir (World Bank, 2021). Bizim araşdırmamızın nəticələri də göstərir ki, Cəlilabad kontekstində hər iki amil – həm maddi, həm də ənənəvi – önəmli rol oynayır. Lakin müsahibimizin də vurğuladığı kimi, bir çox hallarda sosial səbəblər iqtisadi səbəbləri “üstələyir” və son nöqtədə həlledici olur (Gender məsələləri üzrə ekspertlə müsahibə, 10 Noyabr, 2025-ci il).

**Cədvəl 2.2.2. Qızların ali təhsildən yayınmasının səbəb qrupları üzrə paylanması**

| Səbəb qrupu | Bu qrupa aid cavablar (açıqlama) | Respondentlərin payı (%) |
|---|---|---|
| Sosial-mədəni | Ənənəvi düşüncə (valideyn qoymur) və erkən nikah | 53.8 |
| İqtisadi | Ailənin maddi imkansızlığı | 33.3 |
| Fərdi | Qızın öz maraq göstərməməsi | 2.6 |
| Digər | Yuxarıdakı kateqoriyalara aid olmayan digər səbəblər | 10.3 |

Bu kontekstdə qeyd etmək lazımdır ki, “valideynlərin icazə verməməsi” məhz ailələrdəki ənənəvi düşüncə tərzinin nəticəsidir. Ədəbiyyatda gender stereotipləri kimi tanınan bu ənənəvi təsəvvürlərə görə qız övladının ali təhsil alması bəzən vacib sayılmır, onun əsas rolu ailə qurub övlad böyütmək kimi görülür. Gözəlova (2014) Azərbaycanda qadınların təhsilində əsas çətinliklərdən birinin məhz bu cür stereotiplər olduğunu vurğulamışdı. Bizim sorğu nəticələrimiz göstərir ki, Cəlilabadda da bu yanaşma hələ də təsirsiz deyil: Təxminən üçdə bir respondent qızların təhsil ala bilməməsini valideyn icazəsi (ənənə) ilə əlaqələndirir. Müsahibimizin sözləri isə bu stereotip düşüncənin konkret təzahürünü anladır: “Onların qaydaları belədir: qadın evdə ev işində olmalıdır, 9-cu sinifdən etibarən dərsə göndərilməməli və zamanı gələndə valideynin məsləhət gördüyü adamla evlənməlidir (Gender məsələləri üzrə ekspertlə müsahibə, 10 Noyabr, 2025-ci il)”. Bu cümlə, kənd yerlərində bəzi valideynlərin yazılmamış qanun kimi qəbul etdiyi qaydanı açıq ifadə edir. Yəni, ailələr qızlarını 9-cu sinfi bitirdikdən sonra məktəbə göndərmirlər və ən geci 18 yaşında ərə verməyi planlayırlar. Təəssüf ki, belə düşüncə tərzi nəsildən-nəslə ötürülür və bir növ adət halını alır. Nəticədə yüzlərlə gənc qız öz potensial imkanlarından – ali təhsil almaq, peşə sahibi olmaq – məhrum edilir.

Nəticələrimizdə maliyyə probleminin də yüksək pay tutması diqqət çəkir. Respondentlərin üçdə birindən çoxu iqtisadi çətinliyi əsas səbəb göstərib. Bu o deməkdir ki, xeyli sayda ailə qız övladını oxutmağa maddi gücünün çatmadığını düşünür. Müsahibimiz də ailələrin maddi cəhətdən övladlarını asılı durumda saxladığını qeyd edir və bildirir ki, qızların təhsilinə sərmayə qoyulmaması bir qədər də “maddi-mənəvi asılılıq” məsələsidir (Gender məsələləri üzrə ekspertlə müsahibə, 10 Noyabr, 2025-ci il). Yəni, bəzi valideynlər oğlan övladlarına üstünlük verərək məhdud resurslarını onlara xərcləyir, qızların təhsilini isə prioritet saymır. Halbuki, müasir yanaşmaya görə valideynlər oğlan övladları qədər qızlarının təhsilinə də investisiya etməlidirlər. Sorğumuz çərçivəsində bu mövzuda verdiyimiz Likert tipli sualın nəticəsi maraqlıdır: “Valideynlər oğlan övladları qədər qız övladlarının təhsilinə də önəm verməlidirlər” fikri ilə respondentlərin böyük əksəriyyəti razılaşır (Cədvəl 8). Bu ifadəyə tam razı olanlar 56.4%, qismən razı olanlar 12.8% təşkil edir. Yalnız 15.4% bu fikrə qarşı çıxıb (7.7% qismən razı deyil, 7.7% isə ümumiyyətlə razı deyil). Deməli, sorğuda iştirak edən qadınların mütləq əksəriyyəti valideynlərin həm oğlan, həm qız övladlarının təhsilinə bərabər yanaşmalı olduqlarını düşünür. Bu, ümidverici məqamdır – yəni, qadınlar arasında artıq qızların təhsilinin önəmini anlayanlar çoxluqdadır. Lakin

problem ondadır ki, qərar verən tərəf yalnız qadınlar deyil; valideynlər, xüsusən də atalar və ailədəki digər təsir gücünə malik şəxslər bu fikirdə deyilsə, qızların təhsilini davam etdirməsinə maneələr qalmaqda davam edəcək. Əgər ailədə qızların təhsilinə önəm verilmir, oğlanların təhsili üstün tutulursa, bu, birbaşa gender bərabərsizliyi nümunəsidir. Belə hallar təkcə bizim tədqiqatımızda deyil, ümumən digər ölkələrin təcrübəsində də məlumdur. Məsələn, Alasgarova və Peken (2025) Azərbaycanda apardıqları araşdırmada qızların təhsil uğurlarının ailə tərəfindən yetərincə dəstəklənməməsinin onların geridə qalmasına səbəb olduğunu göstəriblər. Sorğumuz göstərir ki, Cəlilabadda qadınlar arasında bu məsələdə maarifləndirmə nəticə verib – ən azı qadınların özləri qız təhsilinin vacibliyini qəbul edirlər. İştirakçıların 60.3%-i "Qızların ali təhsil alması o qədər də vacib deyil, orta təhsillə kifayətlənmək olar" fikri ilə qəti şəkildə razı deyil (Cədvəl 2.5.4). Daha 17.9% qismən razı deyil. Yalnız 11.5% respondent belə bir ifadəyə tam razıdır, 6.4% qismən razıdır. Bu rəqəmlərdən aydın olur ki, sorğuda iştirak edənlərin təxminən 78%-i qızların ali təhsil almasının vacib olduğunu düşünür (çünki "vacib deyil" deyən ifadəyə ya etiraz ediblər, ya da qismən etiraz ediblər). Deməli, problem qadınların düşüncəsində deyil, daha çox ailə başçılarının və mühafizəkar mühitin düşüncəsindədir. Müsahibimizin "camaat nə deyər" sindromu kimi vurğuladığı məqam da bunu göstərir: kənd cəmiyyətində ətrafın nə düşünəcəyi qorxusu ailələri qızların təhsilini yarımçıq qoymağa vadar edir (Gender məsələləri üzrə ekspertlə müsahibə, 10 Noyabr, 2025-ci il). Bu, sosial-mənəvi bir təzyiqdir və maddi imkansızlıq arqumenti bəzən həmin mental baryeri ört-basdır etmək üçün sadalanan bəhanələrdən biridir.

Sorğu nəticələrini müsahibədən əldə etdiyimiz keyfiyyət göstəriciləri ilə tutuşdurduqda, ümumi mənzərə daha da aydınlaşır. Müsahibimizin fikirlərinə əsasən kənd yerlərində qızların oxumasına mane olan ən güclü amil ailələrdən iqtisadi və mənəvi asılılıqdır (Gender məsələləri üzrə ekspertlə müsahibə, 10 Noyabr, 2025-ci il). Valideynlər böyük ailədə söz sahibi olduğu üçün gənc qızlar onların "qaydalarına" uymalı olurlar; bu qaydalar isə qızların 9-cu sinifdən sonra məktəbdən çıxarılıb erkən yaşda ərə verilməsini nəzərdə tutur. Əgər qızlar buna etiraz edərsə, valideynlər maddi dəstəyi kəsə bilir, yaxud sosial çevrə həmin ailəni qınaq obyektinə çevirir. Nəticədə, "müqavimət çox qısa zamanda qırılır" (Gender məsələləri üzrə ekspertlə müsahibə, 10 Noyabr, 2025-ci il) və qızlar təhsili yarımçıq qoymağa məcbur olurlar. Bu təsvir sorğu nəticələrindəki əsas trendləri tamamlaya bilir: Yəni, valideynlərin icazə verməməsi, erkən nikah kimi səbəblərin kökündə, müsahibimizin də açıqladığı kimi, məhz o mühafizəkar ailə qaydaları və "camaat nə deyər" düşüncəsi dayanır (Gender məsələləri üzrə ekspertlə müsahibə, 10 Noyabr, 2025-ci il). Maddi asılılıq isə bu sistemi qüvvədə saxlayır – qız iqtisadi cəhətdən valideyndən asılıdırsa, onların qərarına qarşı gələ bilmir. Bu məqam Elefante (2023) kimi tədqiqatçıların işlərində də öz əksini tapır: Qanunlar kağız üzərində olsa da, kənd yerlərində icra mexanizmi zəifdir və ailədaxili qaydalar faktiki qanuna çevrilir. Bizim tədqiqatda da belə görünür ki, ailədaxili "qanunlar" (qız uşağını çox oxutmamaq, tez ərə vermək) rəsmi hüquqi normalardan daha güclü təsir edir. Bu vəziyyətin dəyişməsi üçün hansı addımların atılması lazım olduğu fəsil IV-də müzakirə ediləcək.

Nəticə etibarilə, ənənəvi normativ strukturlar, erkən nikah praktikası, iqtisadi imkanların məhdudluğu və hüquqi icra boşluqları bir-birini gücləndirən mexanizm yaradır. Bu mexanizm Cəlilabadda qız uşaqlarının təhsil ala bilməməsi, qadınların iqtisadi müstəqillik qazana bilməməsi və ümumilikdə regionun sosial-iqtisadi inkişafının yavaşlaması kimi nəticələrə gətirib çıxarır.

### 2.3. Erkən nişan və uşaq nikahları

Cəlilabad bölgəsində qadınların təhsildən yayınmasının əsas səbəblərindən biri də çox gənc yaşlarda nişanlanma və evliliyin geniş yayılmasıdır. Ailələr qızları bəzən 15-16 yaşında nişanlayır və qız 18 yaşına çatan kimi rəsmi nikaha daxil edilir. Hətta rəsmi nikah yaşı gözlənilmədən, bəzi hallarda dini kəbin kəsilərək qızların 16-17 yaşında ailə qurması halları da mövcuddur. Belə erkən nikahlar qanun qarşısında rəsmiləşdirilmədiyi üçün statistikada tam əksini tapmasa da, doğum qeydləri və qeyri rəsmi məlumatlar problemin miqyasını göstərir. Məsələn, 2017-ci ildə aparılmış bir araşdırmada Lənkəran iqtisadi rayonunda (bura Cəlilabad da daxildir) uşaq nikahlarının sayında artım müşahidə olunduğu və həmin bölgənin ölkə üzrə erkən nikahların ən çox baş verdiyi yerlərdən olduğu vurğulanır (Girls not Brides, 2024). UNICEF-in 2023-cü il hesabatı da cənub bölgəsində 20-49 yaş arası qadınların dörddə birindən çoxunun 18 yaşına çatmamış ailə qurduğunu bildirir. Erkən nikah birbaşa qızların təhsilini yarımçıq qoymasına səbəb olur: qızlar nişanlandıqdan sonra artıq məktəbə davam etmirlər, ərə getdikdən sonra isə formal təhsil almaq imkanları demək olar ki, tamamilə itir (Girls not Brides, 2024). Üstəlik, erkən yaşda ailə quran qızlar adətən tez ana olurlar, bu da onların təhsilə qayıtmasını və ya əmək

Qızların 18 yaşından əvvəl ailə qurması həm onların təhsilini yarımçıq qoyur, həm də cəmiyyətdə bir sıra fəsadlara yol açır. Sorğumuzda bu mövzunu ayrıca araşdırmaq üçün "Sizcə, kənd yerlərində qızların erkən yaşda (18-dən əvvəl) ailə qurmasına ən çox hansı amil təsir edir?" sualı verilib. Respondentlərin yarıdan çoxu (53.8%) erkən nikahların başlıca səbəbi kimi ənənəvi adət-ənənələri və mentaliteti göstərir. Yəni, kənd cəmiyyətində formalaşmış yazılmamış qaydalar, "adətdir, qızı tez vermək lazımdır" kimi düşüncələr hələ də hökm sürür. Bu, gözlənilən nəticədir, çünki Azərbaycanda erkən nikahlar məsələsi ən çox məhz cənub bölgəsinin (Lənkəran-Astara iqtisadi rayonu) kəndləri üçün xarakterikdir. UNICEF-in 2023-cü ildə apardığı çoxindikatorlu klaster tədqiqatına əsasən bu bölgədə 20-24 yaşlı qadınların 33.2%-i 18 yaşınadək ərə gedib. Bizim respondetlərin 53.8%-nin "ənənə" deməsi də bu statistikanı izah edir – demək, cəmiyyətin yarıdan çoxu erkən nikahları adət kimi qəbul edir və davam etdirir.

**Cədvəl 2.3.1. Kənd yerlərində qızların 18 yaşdan əvvəl ailə qurmasının əsas səbəbləri**

| Səbəb (erkən nikahlara yol açan amil) | Say (n) | Faiz (%) |
|---|---|---|
| Ənənəvi adət-ənənələr və mentalitet | 42 | 53.8 |
| Ailənin sosial-iqtisadi vəziyyəti (yoxsulluq) | 10 | 12.8 |
| Qızların təhsildən yayınması, perspektivin olmaması | 11 | 14.1 |
| Qızın və ya ailəsinin şəxsi istəyi | 6 | 7.7 |
| Digər | 9 | 11.5 |

Sorğu nəticələrinə əsasən, mentalitet və ənənə erkən nikahların ən böyük tətikləyicisidir. Bu da digər tədqiqatların gəldiyi nəticələrlə üst-üstə düşür. Məsələn, 2015-ci ildə UNFPA tərəfindən Azərbaycanda aparılan bir araşdırmada da erkən evliliklərin başlıca səbəbi kimi cəmiyyətin ənənəvi baxışları qeyd olunurdu. Bizim müsahibimiz də eyni məqama toxunur: "Qız uşaqlarının hələ 18 yaşı tamam olmazdan öncə (hətta 14-15 yaşlarında) nişanlanmaları və 18 yaşlarına çatan kimi evləndirilmələri" Cəlilabadda müşahidə edilən bir haldır (Gender məsələləri üzrə ekspertlə müsahibə, 10 Noyabr, 2025-ci il). O, bunu bir qayda kimi təsvir edir ki, valideynlər zamanı gələndə qızını məsləhət bildiyi adamla evləndirir.

Respondentlərin 53.8%-i erkən nikahın səbəbi kimi mentaliteti göstərir, yəni adət olduğunu deyir, eyni zamanda 68%-i (51.3%+16.7%) bunun mənfi nəticələrini

etiraf edir. Bu onu göstərir ki, cəmiyyət bir qədər fatalist yanaşır: hamı bilir ziyanlıdır, amma "adətdir" deyib davam etdirir. Müsahibimiz bu durumda qadınların çıxış yolunu köçməkdə gördüyünü qeyd edirdi (Gender məsələləri üzrə ekspertlə müsahibə, 10 Noyabr, 2025-ci il). Həqiqətən də, əgər bir qayda cəmiyyət tərəfindən dəstəklənir, fərdlər isə bunun yanlış olduğunu fərq etsələr də onu dəyişdirə bilmirlərsə, ya özləri uyğunlaşırlar, ya da o mühitdən uzaqlaşırlar. Bizim araşdırma nəticələrimiz də bunu göstərir ki, erkən nikah məsələsində maarifləndirmə olsa belə, mentaliteti qırmaq asan deyil. Respondentlərin yarıdan çoxu bunun ziyanlı olduğunu bilərəkdən, yenə də həmin hal geniş yayılıbsa (UNICEF göstəricilərindəki kimi ~33%), deməli, burada hüquqi mexanizmlərin zəifliyi də rol oynayır. Çünki erkən nikah qanunla qadağandır (18 yaşdan əvvəl rəsmi nikah qeydə alınmır). Lakin praktikada dini kəbin və ya qeyri-rəsmi nikahlarla bu baş verir və heç kim ciddi cəzalanmır. Elefante (2023) kimi tədqiqatçılar vurğulayır ki, qanunlar olsa da, icra zəifdir və nəticədə qadınların hüquqları tam qorunmur. Bizim tədqiqat da bunu dolaylı şəkildə təsdiqləyir: Respondentlərin yalnız 14.1%-i erkən nikahların qarşısını alan qanunların sərt icrasını qızların təhsilə davam etməsi və işləməsi üçün vacib addım kimi görüb. Yəni, əksər insanlar hüquqi yolla bu problemin həllinə o qədər də ümid bəsləmirlər, daha çox maarifləndirmə və sosial-iqtisadi addımları önəmli sayırlar.

Sorğunun erkən nikahlarla bağlı ortaya qoyduğu mənzərəni müsahibimizin fikirləri dəstəkləyir. Müsahibimiz açıq şəkildə bildirir ki, erkən evlilik qadınların həyatını məhdudlaşdırır: onlar müstəqil qərar verə bilmirlər, təhsildən və işdən kənarda qalırlar (Gender məsələləri üzrə ekspertlə müsahibə, 10 Noyabr, 2025-ci il). Erkən nikah, bir qayda olaraq, erkən analığa da yol açır ki, bu da həm sağlamlıq riskləri yaradır, həm də qadının inkişaf perspektivini praktiki olaraq yox edir. Respondentlərimizin çoxu bunu anlayır – yəni, zərərlərini görür. Lakin problemin davam etməsi cəmiyyətin sosial strukturu və nəzarət mexanizmləri ilə bağlıdır. Maraqlıdır ki, sorğu zamanı "Qadının ali təhsil alması onun ailə qurmaq şansına təsir edirmi?" sualını da verdik. Bu, erkən nikahla birbaşa əlaqəli olmasa da, cəmiyyətdəki bir stereotipi ölçmək üçün idi: bəzən deyirlər ki, qız çox oxuyub, ali təhsilli olubsa ərə getməkdə çətinlik çəkəcək. Bu fikirdə olanlar qızlarını oxutmaqdan da çəkinirlər. Lakin bizim sorğu nəticəmiz göstərdi ki, əksər respondentlər belə düşünmür. Təxminən 69%-ə yaxın bir kütlə ("xüsusi təsir etmir" və "əksinə, müsbət təsir edir" cavablarını cəmləsək) ali təhsilin ailə qurmada mənfi rol oynamadığını bildirir. Yəni, "oxumuş qız ərə getməz" kimi stereotip geniş paylaşılmır. Bu, çox müsbət göstəricidir və onu deməyə əsas verir ki, erkən nikahların davam etməsi qızların çox oxuyub tənha qalacağı qorxusundan qaynaqlanmır. Daha çox səbəb ənənə və iqtisadiyyatda axtarılmalıdır.

**Cədvəl 2.3.2. "Qadının ali təhsil alması onun ailə qurmaq şansına təsir edirmi?" sualına cavablar**

| Cavab | Say (n) | Faiz (%) |
|---|---|---|
| Bəli, mənfi təsir edir (ali təhsilli qadın ailə qurmaqda çətinlik çəkir) | 9 | 11.5 |
| Bəli, qismən təsir edir | 13 | 16.7 |
| Xeyr, xüsusi təsir göstərmir | 21 | 26.9 |
| Əksinə, müsbət təsir edir (ali təhsil ailə qurmaq şansını artırır) | 33 | 42.3 |
| Fikrim yoxdur | 2 | 2.6 |

Beləliklə, erkən nikahlar mövzusunda aparılan təhlil göstərir ki, Cəlilabad rayonunda bu problem ciddiliyini qoruyur və əsas səbəbi kimi cəmiyyətin mental dəyərləri çıxış edir. Qızların erkən evləndirilməsi onların təhsil imkanlarını əlindən alır, erkən ana olmaları sağlamlıq risklərini artırır və iqtisadi baxımdan asılılığı

möhkəmləndirir. İnsanların dörddə birindən çoxu düşünür ki, əsas həll maarifləndirmədir – yəni mentaliteti dəyişmək.

Bəs qanunvericilik bu haqda nə deyir? Azərbaycanda erkən nikahlar qanunla qadağandır, 18 yaşından aşağı şəxslə nikah rəsmən qeydə alınmır və yetkinlik yaşına çatmayanın evləndirilməsi Cinayət Məcəlləsi ilə cəzalandırılır. 2011-ci ildə nikah yaşı qadınlar üçün 17-dən 18-ə qaldırılaraq kişilərlə bərabərləşdirilib, erkən nikaha görə cəzalar da sərtləşdirilib. Lakin qanunların kağız üzərində olması yetərli deyil – onların icrası, xüsusən ucqar kənd yerlərində, zəifdir. Cəlilabad kimi bölgələrdə erkən nikahlar çox vaxt rəsmi qeydiyyata alınmadığı üçün hüquq-mühafizə orqanlarının müdaxilə imkanı məhdud qalır. Yerli icma böyükləri, bəzən rəsmi qurum nümayəndələri də məsələyə "ailə daxili iş" kimi baxaraq qarışmamağa üstünlük verirlər. Bununla yanaşı, qızların təhsildən yayınmasına qarşı inzibati və pedaqoji nəzarət də yetərsizdir. Orta məktəbi bitirməyən qızların sayı rəsmi statistikada dəqiq göstərilmir; lakin Təhsil Nazirliyi və yerli icra strukturları bu halları aşkarlayıb valideynlərlə profilaktik söhbətlər aparmaqdan o tərəfə keçmirlər. Halbuki, bəzi ölkələrdə məcburi təhsili tərk edən azyaşlıların valideynlərinə cərimə və cəza tədbirləri nəzərdə tutulur. Bizim ölkəmizdə isə hələ ki, belə effektiv mexanizmlər tətbiq olunmayıb. Buna qarşılıq, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və qeyri-hökumət təşkilatları periodik maarifləndirici kampaniyalar həyata keçirir, erkən nikahların ziyanı və qızların təhsildən yayınmaması üçün əhali arasında təbliğat aparırlar. Məsələn, 2022-ci ildə Cəlilabadda keçirilən bir tədbirdə erkən nikahların qanunsuz olması, bu halların aşkarlanacağı təqdirdə məsuliyyətə cəlbetmə mexanizmi haqqında məlumatlar verilib, qızların peşə və ali təhsilə cəlb edilməsi təşviq olunub. Bu cür tədbirlərin müəyyən müsbət təsiri olsa da, problemi kökündən həll etmək üçün daha sistemli və davamlı işlər gərəklidir.

Azərbaycanda qadınların təhsil və əmək hüquqları, həmçinin erkən nikahların qarşısının alınması üçün zəruri hüquqi baza formal olaraq mövcuddur. 2006-cı ildə qəbul olunmuş “Kişi və qadınların bərabər hüquq və imkanlarının təminatları haqqında” Qanun gender əsaslı ayrı-seçkiliyin aradan qaldırılmasını və qadınlarla kişilərin bütün sahələrdə bərabər imkanlara malik olmasını nəzərdə tutur (Azərbaycan Respublikası Milli Məclisi, 2006). 2010-cu ildə qəbul edilən “Məişət zorakılığının qarşısının alınması haqqında” Qanun isə zorakılığa məruz qalan şəxslərə hüquqi və sosial müdafiə mexanizmləri təqdim edir (Azərbaycan Respublikası Milli Məclisi, 2010; Baku Research Institute, 2020). 2011-ci ildə Ailə Məcəlləsinə edilmiş dəyişikliklə qadınlar üçün nikah yaşı 17-dən 18-ə qaldırılaraq kişilərlə bərabərləşdirilmişdir (UNFPA, 2011; SDG Azerbaijan, 2011). Hal-hazırda Ailə Məcəlləsinin 10-cu maddəsində nikah yaşı hər iki cins üçün 18 kimi müəyyən olunur, yalnız istisna hallarda yerli icra hakimiyyətinin razılığı ilə bir il azaldıla bilər (ILO NATLEX, 2021).

Bu hüquqi sənədlər nəzəri baxımdan qadınların hüquqlarını qorumaq üçün kifayət qədər güclü çərçivə yaradır. Lakin beynəlxalq təşkilatların və yerli tədqiqatçıların hesabatları göstərir ki, əsas problem qanunların icrasında və icra mexanizmlərinin institutlaşmasında ortaya çıxır. Avropa Şurasının gender və məişət zorakılığına dair hüquqi çərçivə ilə bağlı hesabatında qeyd olunur ki, Azərbaycanda normativ baza yaratmaq istiqamətində ciddi addımlar atılsa da, məhz tətbiqetmə mərhələsində boşluqlar qalır və zərərçəkmiş qadınlar üçün effektiv müdafiə mexanizmləri tam işlək deyil (Council of Europe, 2021; Ministry for Foreign Affairs of Finland, 2020).

Bu kontekstdə Cəlilabad kimi ucqar rayonlarda vəziyyət daha həssasdır. Erkən nikahlar çox vaxt rəsmi qeydiyyatdankənar, yalnız dini kəbin formasında həyata keçirildiyi üçün hüquq-mühafizə orqanlarının müdaxilə imkanı məhdud olur. Rəsmi nikah olmadıqda nə Ailə Məcəlləsinin, nə də məişət zorakılığı ilə bağlı qanunun qadını qoruyan müddəaları işləyir. Məsələn, dini nikahla ailə qurmuş 16–17 yaşlı qız nə nikah pozularsa aliment tələb edə bilir, nə də məişət zorakılığına görə sığınacaq və hüquqi

yardım mexanizmlərindən rahat istifadə edir. Region üzrə aparılmış bəzi tədqiqatlar göstərir ki, qadınların hüquq-mühafizə orqanlarına müraciət etməsinə cəmiyyətdə birmənalı baxılmır və polis əməkdaşlarının özləri də bəzən “ailə daxilində problemdir, öz aranızda həll edin” yanaşmasını sərgiləyirlər (Equimundo, 2019).

Əlavə olaraq, təhsildən yayınan qızların məsuliyyətinə dair mexanizmlər də kifayət qədər işlək deyil. Formal olaraq 9 illik icbari təhsil mövcuddur, lakin real həyatda xüsusən kənd orta məktəblərində IX sinifdən sonra qızların dərsə davam etməməsi halları diqqətdən kənarda qalır. Müəllimlər çox zaman yalnız formal rəqəmləri hesabatda göstərməklə kifayətlənir, valideynlərlə sistemli profilaktik iş aparılmır. Bəzi ölkələrin təcrübəsində (məsələn, Türkiyə və Latın Amerikası ölkələrinin bir qismində) icbari təhsili yarımçıq qoyan uşaqların valideynlərinə qarşı cərimə və inzibati tədbirlər tətbiq olunur; bu, ailələri az da olsa məsuliyyətli olmağa məcbur edir. Azərbaycanda isə bu mexanizm zəif işlədiyindən, xüsusilə kəndlərdə qızların məktəbdən çıxarılması “adi hal” kimi qəbul olunur.

Hüquqi çərçivəni təhlil edərkən belə bir paradoks ortaya çıxır: bir tərəfdən, dövlət beynəlxalq konvensiyalara qoşulub, gender bərabərliyi haqqında qanun qəbul edib, nikah yaşını 18-ə qaldırıb; digər tərəfdən isə real praktikada həmin sənədlərin ruhuna uyğun davranış tam təmin olunmur. Bu uçurumu azaltmaq üçün təkcə yeni qanunlar qəbul etmək deyil, mövcud qanunların icrasını yerli səviyyədə təmin edən institusional mexanizmləri gücləndirmək lazımdır.

**Cədvəl 2.3.3. Qadınların hüquqlarına dair əsas hüquqi sənədlər və onların məzmunu**

| Sənəd | Qəbul ili | Qısa məzmunu |
|---|---|---|
| CEDAW Konvensiyasının ratifikasiyası | 1995 | Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvini öhdəlik kimi qəbul edir. |
| “Kişi və qadınların bərabər hüquq və imkanlarının təminatları haqqında” Qanun | 2006 | Gender əsaslı ayrı-seçkiliyin qadağan olunması və bərabər imkanların təmin olunması. |
| “Məişət zorakılığının qarşısının alınması haqqında” Qanun | 2010 | Zorakılıq qurbanlarının hüquqi və sosial müdafiəsi, sığınacaq və digər xidmətlər. |
| Ailə Məcəlləsinə dəyişiklik – nikah yaşının 18-ə qaldırılması | 2011 | Hər iki cins üçün nikah yaşının 18 olaraq müəyyən edilməsi; erkən nikaha görə sanksiyalar. |

**Mənbə:** Azərbaycan Respublikası qanunvericiliyi, UNFPA və Avropa Şurası sənədləri əsasında ümumiləşdirilmiş məlumatlar

Bu məqsədlə son illər bəzi milli strategiyalar və fəaliyyət planları qəbul olunub. Məsələn, gender bərabərliyi və məişət zorakılığı ilə mübarizə üzrə Milli Fəaliyyət Planları hazırlanıb, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi regional mərkəzlərin şəbəkəsini genişləndirməyə çalışıb (EU Neighbours East, 2022). Lakin bu sənədlər daha çox normativ xarakter daşıyır; onların Cəlilabad kimi rayonlarda gündəlik həyata necə keçdiyi isə əlavə monitorinq tələb edir. Aşağıdakı cədvəldə qadınların hüquqlarını qorumaq və erkən nikahların qarşısını almaq üçün qəbul olunmuş bəzi əsas hüquqi sənədlər ümumiləşdirilir.

### 2.4. Ənənəvi normalar və mentalitet

Cəlilabad rayonunda qadınların təhsil hüququnun məhdudlaşmasının dərin kökləri ənənəvi patriarxal dəyərlərlə bağlıdır. Kənd icmalarında formalaşmış stereotiplərə görə, qızların əsas vəzifəsi yaxşı bir zövcə və ana olmaqdır; uzun müddət oxumaq və karyera qurmaq ikinci dərəcəli hesab edilir. Bir çox valideynlər qız övladının ali təhsil almasındansa erkən yaşda ailə qurmasını daha məqsədəuyğun sayırlar. Belə ailələrdə qızların 9 illik icbari təhsildən sonra məktəbdən çıxarılması adi haldır. Yerli müşahidələr göstərir ki, kənd məktəblərində IX sinifdən sonra yuxarı siniflərdə (X-XI) davamiyyət əsasən oğlanlardan ibarət olur, qızların böyük hissəsi isə həmin mərhələdə artıq məktəbdən uzaqlaşdırılır. Bu hal "ailə namusu" anlayışı ilə də əlaqələndirilir: bəzi valideynlərə görə, qızın uzağa, başqa şəhərə oxumağa göndərilməsi və ya uzun müddət təhsildə qalması arzuolunmazdır, çünki bunun onun ailə qurmaq şansına mənfi təsir edəcəyindən ehtiyatlanırlar (Girls not Brides, 2024). Girls Not Brides koalisiyasının məlumatına görə, Azərbaycanın bir sıra icmalarında qızların ali təhsilə davam etməsi "namus" səbəbilə məhdudlaşdırılır – valideynlər hesab edir ki, qızın ali təhsili onun tez bir zamanda ərə getmək şansını azalda bilər. Nəticədə, gənc qızların şəxsi inkişafı cəmiyyətdə kök salmış gender stereotiplərinə qurban verilir. Bu cür ənənəvi düşüncə tərzi nəsildən-nəslə ötürülərək möhkəmlənir və müasir dövrdə belə regionda dəyişmək bilməyən bir normaya çevrilir.

Yuxarıdakı təhlillər əsasında Cəlilabad rayonunda qızların təhsildən yayınması və qadınların iş həyatında az iştirakına dair bir neçə əsas nəticə əldə etmiş olduq. Bu nəticələri qısa şəkildə ümumiləşdirmək üçün Cədvəl 3.5.1-ə nəzər salaq. Bu cədvəldə tədqiqatın əvvəlində irəli sürdüyümüz fərziyyələrin təsdiq olunub-olunmaması göstərilib. Araşdırma başlayanda biz bir sıra fərziyyələr formalaşdırmışdıq:

- **Fərziyyə 1:** Dağınıq konservativ ənənələr qızların orta təhsildən sonra ali təhsilə yönəlməsinə ən böyük maneədir.
- **Fərziyyə 2:** Qadınların əmək fəaliyyətində iştirakının az olmasının əsas səbəbi sosial stereotiplərdir (qadınların yerinin ev olduğu düşüncəsi).
- **Fərziyyə 3:** Cəlilabadda qadınlar arasında ənənəvi gender stereotipləri geniş yayılıb.
- **Fərziyyə 4:** Erkən nikahlar qızların həyatında mənfi təsirlərə yol açır və bu halın davam etməsi qızların təhsil və kariyera imkanlarını ciddi məhdudlaşdırır.
- **Fərziyyə 5:** Qızların təhsil alması və qadınların işləməsi probleminin həllində əsas addım maarifləndirmə tədbirləri olacaq.

Sorğu və müsahibə nəticələri bu fərziyyələrin əksəriyyətini təsdiq edir, bəzilərinə isə düzəlişlər edir. Cədvəl 2.4.1-də hər bir fərziyyə üzrə gəldiyimiz qərar qeyd olunub.

**Cədvəl 2.4.1 Tədqiqat problemini yaradan səbəblərin nəticələrə əsasən umumi qiymətləndirilməsi**

| **Problemi ərsəyə gətirən səbəblər** | **Nəticələrə əsasən vəziyyət** |
|---|---|
| 1. Bölgədə valideynlərin icazə verməməsi problemi əsas maneədir | Qismən təsdiqləndi. Sorğuya görə maddi çətinlik bir qədər öndə (33.3%), lakin ənənəvi düşüncə + erkən nikah birlikdə daha böyük pay tutur (cəmi 53.8%). Bu, ənənəvi səbəbin çox önəmli olduğunu göstərir. |
| 2. Qadınların az işləməsinin əsas səbəbi cəmiyyətin “evdar qadın” stereotipidir. | Qismən təsdiqləndi. Sorğuya əsasən qadınlar üçün iş yerlərinin azlığı birinci yerdə (30.8%), lakin stereotipik düşüncə (25.6%) və ailədaxili qadağa (12.8%) birlikdə götürüldükdə daha böyük paya malikdir (~38.4%). Yəni, sosial stereotiplər toplu halda başlıca səbəb sayıla bilər, lakin infrastruktur problemi də çox önəmlidir. |

| | |
|---|---|
| 3. Cəlilabad qadınları arasında ənənəvi gender stereotipləri geniş yayılıb (qadınlar özləri də “qadın işi-evdir” fikrini dəstəkləyir). | Təsdiqlənmədi |
| 4. Erkən nikahlar qızların həyatına mənfi təsir göstərir və bu problem sosial-iqtisadi bərabərsizliyi dərinləşdirir. | Tam təsdiqləndi. Respondentlərin 68%-i erkən nikahın mənfi nəticələrə yol açdığını qəbul edir. Erkən nikahın ən əsas səbəbinin mentalitet olduğu aşkarlandı. Bu hal qızların təhsilini yarımçıq qoyur, erkən analıq və iqtisadi asılılıq yaradır – yəni sosial-iqtisadi bərabərsizliyi artırır. |
| 5. Problemin həllində ən vacib addım maarifləndirmədir (mentalitet dəyişikliyi). | Tam təsdiqləndi. Sorğu iştirakçılarının ən çox dəstəklədiyi həll təklifi “valideynlər və gənclər üçün mütəmadi maarifləndirmə tədbirləri” olub (34.6%). Müsahibimizin fikirləri də bu yöndədir: o, yeni dünyaya adaptasiya və mövcud qaydalarla baş etməyin vacib olduğunu vurğulayıb – yəni insanların düşüncəsi dəyişməlidir (Gender məsələləri üzrə ekspertlə müsahibə, 10 Noyabr, 2025-ci il). |

Cədvəl 3.5.1-dən göründüyü kimi, tədqiqat başlayanda irəli sürdüyümüz fərziyyələrin dördü (1, 2, 4, 5) əsasən təsdiqini tapmış, biri isə (3) əldə olunan nəticələrlə təkzib olunmuşdur. Bu, elmi tədqiqat prosesinin normal nəticəsidir – bəzən gözləntilərin əksi məlumatlarda üzə çıxa bilər. Xüsusilə fərziyyə 3 üzrə alınan nəticə diqqətəlayiqdir: Cəlilabad qadınları arasında stereotiplərə rəğmən daha proqressiv düşüncə tərzi müşahidə olunur. Bu, optimizm üçün əsas verir. Lakin bu o demək deyil ki, problem həll olunub; əksinə, demək olar ki, qadınlar dəyişməyə hazırdır, lakin sosial mühit və struktur imkanları hələ geri qalır.

Nəticələrin mövcud ədəbiyyatla müqayisəsi göstərir ki, bizim araşdırmamız bəzi aspektlərdə əvvəlki tapıntıları təsdiq etməklə yanaşı, yeni lokal nüanslar da ortaya qoyub. Məsələn, gender stereotiplərinin təsiri barədə Alasgarova (2025) və Gözəlova (2014) Azərbaycan üzrə ümumi fikir bildirmişdilər ki, “qadının yeri evdir” düşüncəsi təhsilə mənfi təsir edir. Bizim nəticələr isə lokal səviyyədə göstərdi ki, bu düşüncə hələ ailələrdə mövcuddur, lakin qadınların özləri artıq bununla razılaşmırlar. Bu, zaman içində baş vermiş mümkün dəyişimin göstəricisidir. Həmçinin, ədəbiyyatda iqtisadi amillərin (yoxsulluğun) roluna da işarələr vardı – məsələn, erkən nikahların yoxsul ailələrdə daha çox olması qeyd edilirdi. Bizim sorğu da bunu qismən təsdiqlədi: 12.8% erkən nikah səbəbi kimi yoxsulluğu vurğuladı. Lakin yenə də əsas faktor mentalitet olaraq qaldı. Bu, Alvarado-Vélez (2024) kimi tədqiqatların da nəticəsiylə səsləşir – Ekvador nümunəsində göstərilmişdi ki, rural mühitdə qanunların təsiri zəifdir və ənənəvi münasibətlər hakimdir. Cəlilabadda da bənzər mənzərə var, ona görə də hüquqi nəzarətin artırılması təklifini biz də mühüm istiqamət kimi dəyərləndiririk.

Növbəti fəsildə, əldə etdiyimiz bu nəticələrə istinadən, problemin həlli istiqamətləri müzakirə ediləcək. Xüsusilə, sorğu iştirakçılarının təklif etdiyi variantlar (maarifləndirmə, təqaüdlər, qanunların icrası, yeni iş yerləri) və müsahibənin vurğuladığı məqamlar (infrastrukturun inkişafı, hüquqi müdaxilənin vacibliyi) nəzərə alınaraq, qızların təhsilə cəlb olunması və qadınların məşğulluğunun artırılması üçün konkret təkliflər irəli sürüləcək.

## FƏSİL 3. PROBLEMLƏRİN HƏLLİ İSTİQAMƏTLƏRİ

Cəlilabad rayonu kimi ənənəvi mühitə malik bir regionda qızların təhsil hüququnun təmin olunması və qadınların əmək bazarında iştirakının artırılması üçün kompleks yanaşmaya ehtiyac vardır. Öncəki fəsildə apardığımız təhlillər problemin əsas səbəblərini üzə çıxardı. Bu səbəbləri aradan qaldırmaq üçün həm dövlət siyasəti səviyyəsində, həm də icma və ailə səviyyəsində müxtəlif addımların atılması zəruridir. Bu fəsildə biz sorğu və müsahibə nəticələrinə əsaslanaraq, eləcə də mövcud elmi ədəbiyyat və digər ölkələrin təcrübəsindən yararlanaraq, problemlərin həlli istiqamətində mümkün variantları müzakirə edəcəyik. Təklif edəcəyimiz həll yolları bir neçə istiqaməti əhatə edəcək: maarifləndirmə və düşüncə tərzinin dəyişdirilməsi, iqtisadi və infrastruktur dəstəyi, hüquqi çərçivənin gücləndirilməsi və sosial təşəbbüslər.

**Cədvəl 3.1.1. “Qızların təhsilə davam etməsi və qadınların işləməsi üçün hansı addım daha vacibdir?” sualına cavablar**

| Təklif olunan addım | Say (n) | Faiz (%) |
|---|---|---|
| Valideynlər və gənclər üçün mütəmadi maarifləndirmə tədbirləri | 27 | 34.6 |
| Aztəminatlı qızlar üçün təqaüd və maliyyə dəstəyi proqramları | 10 | 12.8 |
| Erkən nikahların qarşısını alan qanunların sərt icrası | 11 | 14.1 |
| Yeni iş yerlərinin açılması və qadınlar üçün peşə kursları | 21 | 26.9 |
| Digər | 9 | 11.5 |

Cədvəl 3.1.1-də cavabların bölgüsü göstərilib. Respondentlərin 34.6%-i maarifləndirməni ən vacib addım kimi görüb. Yəni insanlar anlayır ki, köklü dəyişiklik üçün mentalitet dəyişikliyi vacibdir. Ekspert müsahibəsində dəfələrlə vurğulanır ki, Cəlilabadda problem təkcə informasiya çatışmazlığından doğmur; əsas məsələ insanların uzun illərdən bəri möhkəmlənmiş davranış modelini dəyişə bilməməsidir. Müsahibimiz qeyd edir ki, “bu düşüncə tərzini sındırmaq üçün tək hüquqi nəzarət kifayət etmir, insanların şüuraltına təsir edə biləcək real nümunələr və ardıcıl maarifləndirici iş lazımdır”, yəni mental transformasiya olmadan heç bir hüquqi və ya iqtisadi tədbir gözlənilən effekti vermir (Gender məsələləri üzrə ekspertlə müsahibə, 10 Noyabr, 2025-ci il).

Beynəlxalq uğur hekayələri göstərir ki, ənənəvi və qapalı icmalarda qadınların təhsilə və məşğulluğa çıxışını artırmaq üçün tək mexanizm işləmir; sosial, iqtisadi və hüquqi müdaxilələrin sinerjisi tələb olunur. Bu baxımdan ən çox araşdırılan uğur nümunələrindən biri Banqladeşdə BRAC tərəfindən həyata keçirilən “Girls’ Empowerment Programme”dır. Bu proqram çərçivəsində qızların təhsilini yarımçıq qoymasının qarşısını almaq üçün icma daxilində qız klubları yaradılmış, valideynlərlə dialoq sessiyaları keçirilmiş, eyni zamanda qızların özlərini inkişaf etdirməsi üçün bacarıq və liderlik təlimləri təşkil edilmişdir. Bir neçə il ərzində erkən nikahların sayında ciddi azalma müşahidə olunmuş və qızların məktəbdə davamiyyəti əhəmiyyətli dərəcədə yüksəlmişdir. Modelin uğurlu olmasının səbəbi proqramın təkcə qızları deyil, icmanı da dəyişdirməyə yönəlməsidir.

Ekspert müsahibəsi beynəlxalq təcrübənin Cəlilabad üçün niyə uyğun olduğunu daha da aydınlaşdırır. Müsahibimiz qeyd edir ki, “bizdə insanlar yalnız fakt gördükdə mövqelərini dəyişirlər; kiminsə real həyatda uğur qazandığını görmək, yaxud bir uğursuzluğun səbəbini anlamaq onlara yüz məruzədən daha təsirli olur” (Gender məsələləri üzrə ekspertlə müsahibə, 10 Noyabr, 2025-ci il). Onun fikrincə, maarifləndirmə kampaniyalarında təkcə nəzəri mesajlar deyil, yerli və beynəlxalq səviyyədə uğur qazanmış qadın hekayələri, erkən nikaha və təhsilsizliyə görə həyatında çətinliklər yaşamış insanların real təcrübələri göstərilməlidir. BRAC kimi qız

gücləndirmə proqramlarının uğur səbəbinin də məhz “real nümunələr üzərindən dəyişiklik yaratmaq” olduğunu vurğulayan ekspert, Cəlilabadda da valideyn və icma üzvlərinin emosional və sosial səviyyədə təsirlənə biləcəyi üsulların istifadə edilməli olduğunu bildirir. Bu iki amilin – beynəlxalq modelin və ekspertin müşahidələrinin – sintezindən görünür ki, Cəlilabadda dəyişiklik yaratmaq üçün ən effektiv yol icma psixologiyasını dəyişdirən, qızlara real dəstək verən və ailələrə alternativ gələcək ssenariləri göstərən müdaxilə paketinin hazırlanmasıdır.

### 3.1. İqtisadi rifahın yaxşılaşdırılması və sosial təşəbbüslərin tətbiqi

Birinci mühüm həll istiqaməti maddi-iqtisadi amillərlə bağlıdır. Araşdırmamız göstərdi ki, maddi çətinlik qızların təhsilinə əngəllərdən biridir və ümumən yoxsulluq erkən nikahların bir səbəbidir. Qadınların işləməsi üçün də iqtisadi infrastruktur zəifdir. Bu səbəbdən, ailələrin iqtisadi dəstəklənməsi yönündə siyasətlər vacibdir. Buraya bir neçə konkret addım daxildir:

*Təqaüd və maliyyə dəstəyi proqramları:*
Sorğuda respondetlərin 12.8%-i aztəminatlı qızlar üçün təqaüd proqramlarını əsas addım olaraq görüb (Cədvəl 19). Həqiqətən də, əgər ailə kasıbdırsa və qızını ali məktəbə göndərməyə çətinlik çəkirsə, dövlət və ya donorlar tərəfindən verilən təqaüd bunu həll edə bilər. Misal üçün, Cəlilabad rayonu üzrə xüsusi “Qızlar Oxusun” təqaüdü təsis oluna bilər. Bu təqaüd ildə müəyyən sayda (deyək ki 20 nəfər) qıza verilsə və onlar Bakıdakı və ya başqa şəhərdəki universitetlərdə pulsuz təhsil və yataqxana imkanı qazansalar, xeyli ailə üçün maddi baryer aradan qalxar. Hazırda ölkədə bəzi şirkətlərin belə təşəbbüsləri var (məsələn, SOCAR-ın təqaüdü, müxtəlif fondların qrantları). Onları cənub bölgəsinə istiqamətləndirmək lazımdır.
Təqaüd və maliyyə dəstəyi proqramları üçün klassik nümunələrdən biri Banqladeşdə qızların orta təhsildə qalmasını artırmaq məqsədilə tətbiq edilən stipendiya proqramlarıdır və bu proqramlar qızların təhsil müddətini uzatmaqla erkən evlilik riskini də aşağı salan mexanizm kimi izah olunur (Asian Development Bank, 2021; Hahn et al., 2018). Eyni məntiqlə, şərtli sosial yardım mexanizmi Braziliyada Bolsa Família proqramında məktəbə davamiyyət və sağlamlıq şərtləri ilə əlaqələndirilərək ailələrin uşaqları məktəbdə saxlamasına stimul verib, bu model sosial yardımın “sadəcə pul” yox, davranış dəyişikliyi yaradan alətə çevrilməsini göstərir (Lindert et al., 2007). Meksikada Progresa/Oportunidades/Prospera xəttində tətbiq edilən şərtli transfertlər də təhsil göstəricilərinə təsir edən ən çox öyrənilmiş nümunələrdəndir və burada xüsusilə qızların məktəbdə qalmasının ailə büdcəsinə bağlı risklərini azaltmaq üçün maliyyə təşviqi önə çəkilir (Behrman et al., 2019).

*İş imkanlarının yaradılması:*
İqtisadi dəstəyin bir digər cəhəti rayonun özündə iş yerlərinin açılmasıdır. Respondentlərin 26.9%-i qadınlar üçün yeni iş yerlərinin və peşə kurslarının vacibliyini bildirib. Bu, ikinci əsas təklif kimi çıxıb (maarifləndirmədən sonra). Cəlilabadda iş yerləri ümumən azdır, qadınlara uyğun iş yerləri isə daha da azdır. Odur ki, dövlət investisiyaları və özəl sektorun təşviqi ilə rayonda kiçik sənaye müəssisələri, emal sexləri, turizm obyektləri açmaq lazımdır. Məsələn, Cəlilabadın kənd təsərrüfatı məhsullarını emal edən zavodlar qurula bilər ki, orada qadınlar da iş tapa bilsin. Tikiş fabrikləri, quru meyvə emalı müəssisələri kimi ənənəvi olaraq qadın işçi cəlb edən sektorlar rayonda inkişaf etdirilə bilər. Bunun üçün dövlət tərəfindən güzəştli kreditlər, vergi stimulları verilməlidir ki, investorlar gəlib orada zavod açsın.

*Peşə kursları və təlimlər:*

Yeni iş yerləri ilə yanaşı, qadınların həmin işlərə hazırlığı üçün peşə kursları vacibdir. Cəlilabad rayon mərkəzində "Peşə Tədris Mərkəzi" yaradılaraq xüsusi qızlar və qadınlar üçün proqramlar açıla bilər. Məsələn, kompüter kursları, qrafik dizayn, arıçılıq, xalçaçılıq, biçmə-tikmə kursları təşkil edilə bilər. Bu kurslar vasitəsilə az təhsilli qadınlar belə bir sənət öyrənib evdən kiçik biznesə başlaya bilərlər. Məsələn, tikiş öyrənən qadın evində paltar tikib sata bilər, ya da xalça toxuyub gəlir əldə edə bilər. Belə təşəbbüslər onsuz da bəzi rayonlarda həyata keçirilir (UNDP-nin peşə təhsili layihələrində Cəlilabad pilot region kimi seçilibmiş).

*Ailələrə ünvanlı yardımların şərtləndirilməsi:*
Hal-hazırda kəndlərdə bir çox ailələr sosial yardım alır. Müsahibimizin dediyinə görə, kəndlərin çoxunda ailələr sosial yardım hesabına dolanır (Gender məsələləri üzrə ekspertlə müsahibə, 10 Noyabr, 2025-ci il). Hətta maraqlı bir məqamı qeyd edir: "sosial yardım qadının adına olsa da, o, həmin pulu almaq hüququna malik olmur, kart onun adına gəlsə də pulu nə görmür, nə xərcləmir (Gender məsələləri üzrə ekspertlə müsahibə, 10 Noyabr, 2025-ci il)". Bu, qadınların iqtisadi cəhətdən necə kənarda qaldığına dair real bir misaldır. Biz təklif edərdik ki, sosial yardım proqramı islah olunsun: əgər ailədə sağlam əmək qabiliyyətli qadın varsa, onlara yardım müəyyən şərtlə verilsin – məsələn, qadının özü işə götürülməsi üçün təklif olunduqda razılaşmalıdır, ya da müəyyən kurs keçməlidir. Əks halda, yardım azaldılsın.

*Maddi yardımın düzgün ünvanlanması:*
Yoxsul ailələr çox vaxt qızlarını erkən nikaha maddi səbəbdən verdiyi üçün, onlara bir növ şərti maddi yardım göstərilə bilər. Məsələn, deyə bilərik ki, əgər qızını 18 yaşına qədər ərə verməsən, oxutmağa davam etsən, hər il ailəyə müəyyən məbləğ ödənəcək. Bu cür proqramlar bəzi ölkələrdə tətbiq olunub (conditional cash transfers). Azərbaycanda da pilot ola bilər. Belə ki, valideyn 9-cu sinifdən sonra qızını məktəbdə saxlayırsa, dövlətdən hər ay stimul məbləği alır. Qız 18 yaşına çatıb attestatını alanda, məsələn, əlavə mükafat da verilə bilər.

Göründüyü kimi, iqtisadi həllər paketi olduqca genişdir və hər biri bir-biri ilə əlaqəlidir. Əsas məqsəd qızları təhsildə saxlamaq və qadınları işə çıxarmaq üçün maddi maneələri azaltmaqdır. Bu maneələr həm birbaşa (pulun olmaması), həm dolayı (iş yerinin uzaqlığı, imkan yoxluğu) ola bilər. Bizim təkliflərimiz bu maneələri bir-bir hədəfləyir. Bunların gerçəkləşməsi əlbəttə ki, asan deyil və ciddi resurs tələb edə bilər. Lakin unutmamalıyıq ki, qadınların evdə atıl qalması onsuz da iqtisadi itki deməkdir. Bir misal: Cəlilabadda qadınların cəmi 36%-i işləyirdisə (rəsmi statistikaya görə), əgər bu rəqəmi 50%-ə qaldıra bilsək, rayonun ÜDM-i artar, ailələrin gəlirləri yüksələr, sosial yardım alan azalır və s. Yəni uzunmüddətdə bu tədbirlər özünü maliyyə baxımından da doğruldur. Dünya Bankının hesablamalarına görə, gender bərabərsizliyini azaltmaq ölkənin iqtisadi artımını da sürətləndirir. Deməli, biz bu tədbirləri sadəcə sosial xeyir üçün deyil, həm də iqtisadi fayda üçün etməliyik.

## 3.2. Orta ümumtəhsil müəssisələrində monitorinq mexanizminin yaradılması

Hal-hazırda qanunvericilikdə 9 illik icbari təhsil var. Yəni, valideyn övladını 9-cu sinfə qədər məktəbə göndərməsə məsuliyyət daşıyır. Bizcə, bunu 11 illik etmək zamanıdır – yəni tam orta təhsil də icbari olmalıdır. Ən azından müəyyən rayonlarda pilot kimi tətbiq oluna bilər. Cəlilabad kimi yerlərdə 9-cudan sonra qızların məktəbdən çıxması geniş yayıldığı üçün, qanun qarşısında valideynlərin 11-ci sinfə qədər övladını məktəbdə saxlama borcu olmalıdır. Təbii ki, qanunu kağız üzərində dəyişmək kifayət

etmir, onun icrasına da nəzarət vacibdir. Burada yenə yerli polis və prokurorluq orqanlarına iş düşür. Məsələn, 16 yaşına çatmamış bir qız məktəbdən yayınıbsa, məktəb rəhbərliyi dərhal polisə məlumat verməlidir. Polis gedib ailə ilə ciddi söhbət aparmalıdır ki, nə səbəbə qızı məktəbə buraxmırsınız. Əgər üzrsüz səbəbdəndirsə (xəstəlik deyilsə yəni), valideynə xəbərdarlıq edilməli, qız məktəbə qaytarılmalıdır. Bu tip addımlar indi bəlkə də formal atılır, amma daha sistemli etmək mümkündür. Çünki statistik məlumata görə, Cəlilabadda IX sinifdən sonra qızların məktəbdə davamiyyəti kəskin aşağı düşür (bunu müsahibimiz də qeyd edib (Gender məsələləri üzrə ekspertlə müsahibə, 10 Noyabr, 2025-ci il)). Deməli, bunu bilən Təhsil Nazirliyi lokal monitorinq qrupları yarada bilər, yerlərə ezam edib valideynlərlə fərdi iş aparar, hüquqi məsuliyyəti anladar.

Orta ümumtəhsil müəssisələrində monitorinq mexanizmi dedikdə məktəb mühitində risk siqnallarının vaxtında görülməsi və şagirdin təhsildən yayınma ehtimalı artmazdan əvvəl müdaxilənin işə düşməsi nəzərdə tutulur. Risk siqnalları əsasən davamiyyətin zəifləməsi, ardıcıl üzrsüz buraxılışlar, dərs nailiyyətinin kəskin enməsi, valideynin məktəblə əlaqəni kəsməsi, habelə məktəb yaşında olan qızın nişanlanma xəbərinin yayılması kimi indikatorlar üzərindən izlənir. Erkən xəbərdarlıq sistemləri ilə bağlı təlimatlarda vurğulanır ki, belə mexanizmlərin gücü ayrı-ayrı “hadisəni” yox, ardıcıllıq yaradan nümunəni görməsindədir və məktəbə əsas məqsəd kimi riskin artdığı anda yönəlik addım atmaq imkanı verir (UNICEF, 2018).

Bənzər sistemlər müxtəlif ölkələrdə məktəb reyestrləri və davamiyyət məlumatları üzərindən qurulub və məktəb–ailə kontaktını institusional qaydaya salıb. Türkiyədə Maarif Nazirliyi məktəb məlumat bazalarında toplanan göstəricilər əsasında davamiyyətsizlik və təhsildən yayınma riski olan şagirdləri aşkar edən erkən xəbərdarlıq mexanizmi yaratdığını, ailələrə çatmaq üçün çağrı mərkəzi qurduğunu və riskli şagirdlər üçün psixoloji dəstək xidmətlərini planlaşdırdığını açıq şəkildə bildirib (Ministry of National Education of Türkiye, 2022). Cəlilabad üçün bu təcrübənin praktik tərəfi ondan ibarətdir ki, məktəbdə risk siqnalını görən müəllim onu təkcə “qeyd” səviyyəsində saxlamır, məktəb rəhbərliyi və məktəb psixoloqu ilə birlikdə ailə ilə əlaqə qurur, qızın məktəbdə qalmasını təmin edəcək ən sadə maneələri belə əvvəlcədən müəyyən etməyə çalışır, çünki IX sinifdən sonra qızların məktəbdən uzaqlaşdırılması barədə müşahidələr məhz məktəb səviyyəsində görünür və ilk reaksiya da oradan başlamalıdır.

Braziliyada Bolsa Família çərçivəsində məktəbə davamiyyət şərtləri monitorinq mexanizmi ilə birgə işlədilib və məktəblər, bələdiyyələr və Təhsil Nazirliyi arasında məlumat ötürülməsi sistemi qurulub; burada məqsəd müəyyən faiz həddindən aşağı düşən davamiyyəti vaxtında görmək və ailə ilə işləmək olub (World Bank, 2007). Eyni sənəddə Təhsil Nazirliyinin “Projeto Presença” adlı islahatı ilə təkrarlanan davamiyyətsizliyin erkən aşkarlanması, səbəblərin hədəflənməsi və daha dəqiq, aktual informasiya bazasının yaradılması kimi məqsədlər göstərilir (World Bank, 2007). Cəlilabadda oxşar məntiq məktəbin gündəlik davamiyyət məlumatını yalnız “jurnal” kimi yox, sosial risk göstəricisi kimi oxumağa kömək edir, çünki qızın məktəbdən yayınması bəzən erkən nişanlanma prosesinin görünən ilk mərhələsi olur və həmin mərhələdə ailə ilə təmas qurulmasa, sonrakı aylar artıq formal təhsildən çıxışla nəticələnə bilir.

Cəlilabad üçün monitorinq mexanizmi yalnız “kim dərsə gəlmədi” siyahısı deyil, məktəbin daxilində işlək ardıcıllıq olmalıdır: risk siqnalı görünür, məsul şəxs müəyyən edilir, ailə ilə ilk təmas qurulur, səbəb dəqiqləşdirilir, məktəb daxilində dəstək addımı seçilir və bir ay sonra yenidən qiymətləndirmə aparılır. Qızların təhsildən yayınma riskinin artdığı mərhələlərdə məktəb, yerli icra nümayəndəliyi, uşaq və ailə dəstək strukturları, məktəb psixoloqu və sinif rəhbərinin bir-birinə ötürdüyü məlumat aydın qayda ilə işləməlidir, çünki bir institutun təkbaşına gördüyü iş çox vaxt ailənin sosial təzyiqi qarşısında zəif qalır və müdaxilə gecikəndə mövzu “ailə daxilində həll olundu”

deyilib bağlanır, halbuki prosesin həmin anda bitmədiyi məktəb davamiyyətindən də görünür.

### 3.3. Ailə və nikah məsələlərində hüquqi və ictimai nəzarətin artırılması

Sorğu nəticələrində qanunların sərt icrası birinci yerdə gəlməsə də (cəmi 14.1% bunu əsas hesab edib), bu istiqaməti də gözdən qaçıra bilmərik. Hüquqi mexanizmlər, əgər düzgün tətbiq olunsa, sosial problemlərin həllində mühüm rol oynayır. Azərbaycanda qadınların təhsil və əmək hüquqları Konstitusiya və qanunlar tərəfindən qorunsa da, praktikada bunların pozulmasına qarşı ciddi tədbirlər nadir hallarda görülür. Məsələn, 18 yaşdan əvvəl evlənmək qanuna ziddir (rəsmi nikah qeyri-mümkündür), lakin dini kəbinlə bunu edənlərə qarşı effektiv cəza tədbirləri tətbiq olunmur. Hərdən bir inzibati cərimə xəbərləri çıxır, amma bu, ümumi mənzərəyə təsir etmir. Ona görə də biz təklif edirik ki, bir neçə hüquqi addım atılsın:

*Erkən nikaha qarşı nəzarətin artırılması*

Müsahibimiz maraqlı bir təklif verir: kənd yerlərində anonim qaynar xətt yaradılması və şikayətlərin araşdırılması (Gender məsələləri üzrə ekspertlə müsahibə, 10 Noyabr, 2025-ci il). Bu ideya ondan ibarətdir ki, əgər hansısa qız zorla erkən evləndirilmək təhlükəsi ilə üzləşirsə və ya şahidlər bunu görürsə, anonim şəkildə məlumat versin və müvafiq qurum (polis və ya uşaq hüquqları qurumu) dərhal müdaxilə etsin. Belə bir mexanizm yaratmaq çətin deyil – rayon icra hakimiyyəti və polis birgə qaynar xətt qura bilər. Əsas məsələ informasiya aldıqdan sonra təxirəsalınmaz reaksiya verməkdir. Məsələn, xəbər gəldi ki filan kənddə 16 yaşlı qızın nişanını edirlər – dərhal polis həmin ünvana gedib valideynlərlə profilaktik söhbət aparmalıdır, qanunu izah etməlidir. Əgər artıq dini nikah kəsilibsə, mollanı və valideynləri cərimə etməlidir. Yəni qanunun “dişini göstərməsi” lazımdır ki, camaat az da olsa çəkinib bu işlərdən əl çəksin. Hazırda, demək olar, cəzasızlıq mühiti hökm sürür. İnsanlar bilsə ki, erkən nikaha cəhd ciddi hüquqi məsuliyyət yaradır, bəlkə bir qismi ehtiyat edər.

*Cinsi ayrı-seçkiliyə qarşı hüquqi müdafiə*

Qadınların iş yerlərində və təhsil mühitində ayrı-seçkiliyə uğraması halında şikayət mexanizmləri gücləndirilməlidir. Məsələn, bir müəssisə qadını işə qəbul etmirsə sırf cinsiyyətinə görə, yaxud bir ailə qızı zorla evdə oturdub işləməyə qoymursa (əgər qadın şikayət edirsə), bunlar hüquqi müstəvidə çözülməlidir. Hal-hazırda qadınların hüquqlarını qoruyan qanunlar olsa da, reallıqda qadınlar çox zaman şikayət etməkdən çəkinir. Müsahibimiz də deyir ki, hüquq-mühafizə orqanlarına şikayət edən qadını yenidən ailəsinə qaytarırlar və həyatı daha da çətinləşir (Gender məsələləri üzrə ekspertlə müsahibə, 10 Noyabr, 2025-ci il). Yəni, sistem qadının tərəfində olmur bəzən. Bunu dəyişmək üçün polis əməkdaşlarına və digər müvafiq şəxslərə gender mövzusunda təlimlər verilməlidir. Hüquq-mühafizə orqanlarında qadınlardan ibarət xüsusi qruplar yaradılıb məişət zorakılığı və qadın hüquqları işlərinə baxması təmin edilə bilər. Qadın bilsə ki, polisə getsə onu anlayacaqlar, bəlkə daha cəsarətli olar. Qanunlar kağız üzərində qalmasın deyə, icra mexanizmləri insana yönəlik qurulmalıdır. Bunun bir yolu da icra hakimiyyətlərində Gender üzrə komissiya yaratmaqdır. Məsələn, hər rayon icra hakimiyyətində qadın problemləri üzrə bir nümayəndə təyin olunsun, onun səlahiyyəti olsun ki, ailələrlə profilaktik iş aparsın, şikayətləri yuxarıya ötürsün. Həmin şəxs icra başçısına ildə bir neçə dəfə məruzə etsin

ki, rayonda erkən nikah vəziyyəti nə yerdədir, qızların təhsili ilə bağlı hansı addımları atdıq və s. Belə hesabatlılıq olarsa, yerli məmurlar da məsuliyyət hiss edər.

*Qanunların təkmilləşdirilməsi*

Bəzi boşluqlar varsa qanunvericilikdə, onları aradan qaldırmaq lazımdır. Məsələn, inzibati Xətalar Məcəlləsində erkən nikaha görə valideynlər üçün cəza nəzərdə tutula bilər (əgər nəzərdə tutulmayıbsa). Yaxud 18 yaşdan kiçik qızla dini nikah kəsən din xadiminə qarşı cəza maddəsi dəqiq ifadə olunmalıdır. Bunlar qanunda varsa da, tətbiqi zəifdir – cərimə miqdarını artırmaq, yaxud cəzanı sərtləşdirmək də bir mesaj effekti verə bilər. Həmçinin, iş yerlərində gender bərabərliyini qoruma mexanizmləri dəqiqləşməlidir. Məsələn, əmək qanunvericiliyinə işəgötürənlərin müəyyən saydan çox qadın işlətməsi üçün kvotalar daxil edilə bilər. Bəzi ölkələrdə var ki, dövlət qurumlarında rəhbər vəzifələrin X%-i qadın olmalıdır. Azərbaycanda da bəlkə belə təşəbbüs düşünülə bilər. Rayon səviyyəsində bəlkə çətin tətbiq olunar, amma ümumi bir siqnal olar cəmiyyətə ki, qadınların rolu artır. Həmçinin, təhsil sahəsində qızların STEM (elm, texnologiya, mühəndislik, riyaziyyat) sahələrinə cəlbi üçün xüsusi proqramlar qanuniləşdirilə bilər. Məsələn, universtitetlərin texniki ixtisaslarına qəbulda qızlara əlavə bal və ya xüsusi kontingent ayrıla bilər. Bu, birbaşa qanun mövzusu olmasa da, təhsil siyasəti məsələsidir.

Müsahibimiz en sonda hüquqi nəzarətin gücləndirilməsini vacib amil saymışdı (Gender məsələləri üzrə ekspertlə müsahibə, 10 Noyabr, 2025-ci il). O, hətta məktəblərdə psixoloq və pedaqoqların zəruri tədbirlər görməsindən danışır – yəni əgər bir qız şikayət edibsə, sonradan ailədə ona təzyiq artmaması üçün məktəb nəzarət etsin, müdaxilə etsin. Bu çox incə məqamdır: bir qız müəllliminə evdə təzyiqləri desə, müəllim bunu aidiyyəti orqanlara bildirməlidir. Bəlkə də bunun üçün ayrıca prosedur lazımdır. Məsələn, məktəbdə etimad qutuları qoyula bilər ki, qızlar anonim yazıb problem bildirə bilsin. Oradan çıxan məlumatlar məktəb rəhbərliyi tərəfindən rayon Gender komissiyasına ötürülər və s. Yəni, multi-sektoral mexanizm qurula bilər.

Böyük Britaniyada məcburi nikahların qarşısını almaq üçün hüquqi müdaxilənin əsas alətlərindən biri məhkəmə qərarı ilə tətbiq olunan qorunma mexanizmidir və bu mexanizm risk yaranan kimi prosesi dayandırmağa yönəlir. Bu çərçivədə ən çox istifadə olunan vasitə Forced Marriage Protection Order hesab olunur (UK Government, 2020). FMPO məhkəmənin verdiyi mülki qorunma qərarıdır və əsas məqsəd şəxsin məcburi nikaha aparılmasının qarşısını vaxtında almaqdır (UK Government, 2020). Qərarda ailə üzvlərinin və ya digər şəxslərin nə etməsinin qadağan olunduğu açıq yazılır, məsələn, zərərçəkəni ölkədən çıxarmaq, sənədlərini almaq, təzyiq göstərmək kimi hərəkətlər ayrıca məhdudlaşdırıla bilir (UK Government, 2020). Qərar qüvvədə olduqdan sonra pozuntu həm ailə məhkəməsi xətti ilə, həm də cinayət işi xətti ilə baxıla bilir və 2014-cü ildən etibarən FMPO-nun pozulması ayrıca cinayət tərkibi kimi nəzərdə tutulub (UK Parliament, 2014). Bu rejim polisə pozuntu barədə məlumat daxil olan kimi müdaxilə etməyə hüquqi əsas verir və zərərçəkənin ailə içində tək qalması riskini azaldan praktik mexanizm yaradır (UK Government, 2020).

Nəticə etibarilə, hüquqi islahat və nəzarət problem həllinin mühüm sütunlarından biridir. Hüquq insanların davranışlarına çərçivə qoyur. İndiyədək bu çərçivələr tam işləməyib Cəlilabad cəmiyyətində, amma indi onları canlandırmaq zamanıdır. Qanunun gücünü hiss etdirəcək bir-iki nümunəvi addım belə (məsələn, erkən nikaha cəhd edən bir kənd mollasının cəriməlonib kənddə elan olunması) domino effekti yarada bilər. Əlbəttə, təkcə cəza ilə olmaz, yuxarıda dediyimiz maarifləndirmə və iqtisadi tədbirlərlə paralel getməlidir ki, bir-birini tamamlasın.

### 3.4. Rayon sakinlərinin qadın hüquqları və gender bərabərliyi mövzusunda maarifləndirilməsi

Araşdırmamızın ortaya qoyduğu ən fundamental problem ailələrdə və icmada hələ də mövcud olan köhnə düşüncə tərzidir. Qadınların təhsil alması və işləməsi əleyhinə olan mentalitet bariyerini qırmadan, digər tədbirlərin tam səmərə verəcəyi şübhəlidir. Bu səbəbdən birinci həll istiqaməti kimi maarifləndirmə kampaniyaları gəlir. Bu kampaniyalar həm valideynləri, həm də gənc qızları və oğlanları əhatə etməlidir. Müsahibimizin də dediyi kimi: "Yeni dünyaya adaptasiya olmaq və mövcud qaydalarla baş etmək lazımdır (Gender məsələləri üzrə ekspertlə müsahibə, 10 Noyabr, 2025-ci il)". Yəni insanlar müasir dövrün tələblərinə uyğun düşüncə tərzini qəbul etməlidirlər. Maarifləndirmə tədbirləri müxtəlif formalarda ola bilər:

*Təlim və seminarlar:*
Mütəmadi olaraq kəndlərdə və rayon mərkəzində valideynlər üçün seminarlar təşkil oluna bilər. Bu seminarların mövzusu qızların təhsili, erkən nikahların zərərləri, qadınların işləməsinin ailəyə və cəmiyyətə faydaları kimi məsələlər olmalıdır. İştirakçı kimi yerli nüfuzlu şəxslər (məsələn, müəllimlər, həkimlər, din xadimləri) cəlb edilə bilər ki, mesaj daha inandırıcı olsun. Çünki bəzən rəsmi şəxslərdənsə, camaat öz aralarından çıxmış nümunələrə daha çox qulaq asır. Məsələn, erkən nikahla bağlı seminarı gənc yaşda fəsadlar yaşamış bir qadının aparması, yaxud qızını ali məktəbə göndərib uğur görmüş bir atasının danışması böyük təsir göstərə bilər.

*Məktəb və icma əsaslı tədbirlər:*
Kənd məktəblərində valideyn iclasları, "Açıq qapı" günləri təşkil olunaraq qızların təhsildə qalmasının önəmi vurğulanmalıdır. Müəllimlər bu işdə əsas rol oynaya bilər. Ümumiyyətlə, yerli təhsil şöbəsi və məktəb direktorları bu problemi yaxşı bildikləri üçün, onlar xüsusi proqramlar həyata keçirə bilərlər. Məsələn, IX sinifdən sonra qızların davamiyyətinin azalması müşahidə edilirsə, həmin siniflərdə valideynlərlə fərdi söhbətlər aparıla bilər. "Qızını məktəbdən çıxarma, oxut" mesajını çatdırmaq üçün pedaqoji kollektiv əlbir işləməlidir.

*Kütləvi informasiya vasitələrinin rolu:*
Rayonda yerli media olmasa da, regional televiziya kanallarında (məsələn, cənub bölgəsinə yayımlanan verilişlərdə) qadın mövzularına dair proqramlar hazırlana bilər. Müsahibimiz rayonun Alar qəsəbəsinin digər yerlərdən fərqli, daha açıq düşüncəli olduğunu demişdi (Gender məsələləri üzrə ekspertlə müsahibə, 10 Noyabr, 2025-ci il). Orada qadınların cəmiyyətdə rolu barədə müsbət nümunələr varsa, bunlar mediada göstərilməlidir. Eyni zamanda, sosial şəbəkələrin də imkanlarından yararlanmaq olar. Bugünkü gənclər internetdən informasiya alır. Xüsusi maarifləndirici videolar, infoqrafikalar hazırlanaraq paylaşılarsa, gənc nəsil daha tez məlumatlanar. Məsələn, qısa animasiya rolikləri ilə erkən evliliyin fəsadlarını nümayiş etdirmək, ya da qızların təhsilinin ailəyə gətirə biləcəyi faydaları saymaq olar. UNDP və UNICEF kimi beynəlxalq təşkilatların da bu mövzuda materialları mövcuddur – onları lokal dilə uyğunlaşdırıb yayımlamaq mümkündür.

*Dini liderlərlə iş:*
Cəlilabadın kəndlərində dini nüfuz da rol oynaya bilər. Əgər yerlərdə axundlar, mollalar erkən nikah əleyhinə və qızların təhsili lehinə mesaj versələr, bəzi ənənəvi düşüncəli ailələr bunu daha rahat qəbul edər. Dinin bu mövzuda mövqeyi birmənalıdır: İslam erkən yaşda (həddi-büluğa çatmadan) nikahı dəstəkləmir, eləcə də elm öyrənməyi hər iki cinsə tövsiyə edir. Odur ki, yerli din xadimləri ilə əməkdaşlıq edərək cümə

moizələrində bu mövzuları qabartmaq olar. Belə addımlar cəmiyyətə ənənəvi kanallarla təsir göstərəcək.

Sorğu nəticələrimizdə maarifləndirmənin birinci yerdə gəldiyini xatırlasaq, respondentlərin bu məsələdə haqlı olduğunu görərik. Məsələn, Elefante (2023) kimi tədqiqatlar da hüquqi islahatlarla yanaşı ictimai şüur dəyişiminin vacibliyini vurğulayırdı. Yəni, qanunu sərtləşdirmək kifayət deyil, insanlar onu dərk etməlidir. Biz də hesab edirik ki, "zehniyyət inqilabı" olmadan digər tədbirlər yarımçıq qalar. Buna görə də maarifləndirmə kampaniyaları uzunmüddətli və davamlı şəkildə (tək-tük aksiya kimi yox, sistemli formada) həyata keçirilməlidir. Bu işdə QHT-lərin, qadın təşkilatlarının da rolunu artırmaq lazımdır. Məsələn, bölgədə fəaliyyət göstərən "İşıq" adlı bir qadın təşəbbüs qrupu olsaydı (hazırda belə bir qrup olmasa da təsis oluna bilər), onlar kəndləri gəzməklə qızların valideynləri ilə ünsiyyətdə olar, həmrəy qadın şəbəkəsi qurardılar. Bunun parlaq nümunələri dünyada var – Asiya və Afrikanın bəzi ölkələrində "qadın mentorlar" kəndlərdə dolaşıb gənc qızlarla söhbətlər aparır, onlara motivasiya verir və valideynlərinə təsir edirlər:

Məsələn, BRAC-ın Uqandada həyata keçirdiyi "Empowerment and Livelihood for Adolescents" proqramında kənd icmalarında yalnız qızlara açıq klublar yaradılıb, həmin klublarda həyat bacarıqları və gəlir gətirən fəaliyyətlərlə bağlı təlimlər keçirilib, qızlara mentor dəstəyi və kiçik iqtisadi təşviqlər təqdim edilib (Bandiera və b., 2017). Araşdırmalar göstərir ki, bu klublarda iştirak edən qızlar gəlir qazandıran fəaliyyətlərə qoşulmağa 48 faiz daha çox meylli olur, erkən hamiləlik halları təxminən üçdə bir azalır, erkən evlilik və birlikdə yaşama faizi isə 60 faizə yaxın aşağı düşür (Bandiera və b., 2017). BRAC-ın digər qiymətləndirmələrində klublara üzv olan qızların qazanc əldə etmə imkanının 72 faiz artdığı, yeniyetmə hamiləliyinin 26 faiz, erkən evliliyin isə 58 faiz azaldığı qeyd edilir (BRAC, 2016).

Oxşar yanaşma Qərbi Afrikada Tostan təşkilatının icma gücləndirmə proqramında müşahidə edilib və burada 30 aylıq insan hüquqları və ailə savadlığı təlimləri çərçivəsində kənd icmalarında qadınlar və kişilər üçün geniş miqyaslı maarifləndirmə işləri aparılıb (Diop və b., 2008; Tostan, 2017). Təlimləri icma daxilindən seçilmiş fasilitatorlar idarə etdiyi üçün yerli əhali prosesi özünün təşəbbüsü kimi qəbul edib, ailələr və yerli liderlər gender rolları, sağlamlıq və erkən nikah kimi mövzuları bir yerdə müzakirə ediblər və qızların hüquqları barədə qərarlarda daha fəal iştirak ediblər (Diop və b., 2008). Bir neçə kəndin eyni zamanda erkən nikahdan və bədənə qarşı zərərli zorakılıq formalarından imtina etdiyini ictimai şəkildə bəyan etməsi də həmin prosesi daha güclü etmiş sayılır. Uzunmüddətli qiymətləndirmələrdə erkən nikah göstəricilərinin aşağı düşməsi, qızların təhsil yolunu davam etdirməsi üçün ailə dəstəyinin güclənməsi, kişilərin dəyişikliklərə daha açıq yanaşmağa başlaması qeyd olunub (Population Council, 2008).

Regional miqyasda tətbiq edilən Sahel Women's Empowerment and Demographic Dividend (SWEDD) layihəsi də yeniyetmə qızların gücləndirilməsini və ailələrin davranış dəyişikliklərini birgə hədəfləyən uğurlu nümunələrdən biri kimi qiymətləndirilir. Layihə Burkina-Faso, Niger və Çad kimi ölkələrdə qızlar üçün təhlükəsiz məkanlar yaradaraq həyat bacarıqları, reproduktiv sağlamlıq, hüquqlar və kiçik biznes mövzularında praktiki biliklərin verilməsini təmin edib (UNFPA, 2023; World Bank, 2017). Ailələrə qızlarını məktəbdə saxlamaq üçün sosial və maddi təşviqlər təqdim olunub və bu tədbirlərin nəticəsində məktəbdə davamiyyət artıb, erkən nikah halları azalıb, qızların öz həyatlarına dair qərarlarda daha çox iştirak etdiyi müşahidə edilib (Population Council, 2020; UNFPA, 2023). SWEDD proqramında diqqət çəkən cəhətlərdən biri valideynlərlə, dini liderlərlə və müəllimlərlə eyni zamanda dialoq platformalarının yaradılmasıdır və bu proses qızların ətrafında dəstək şəbəkəsinin formalaşmasına imkan yaradıb, şəbəkə isə müdaxilənin təsir gücünü artırıb (UNFPA, 2023).

Azərbaycan üçün bu nümunələrə nəzər salındıqda, bəzi komponentlərin ölkədə tətbiq olunduğu, amma Cəlilabad kimi mühafizəkar rayonlarda sistemli şəkildə birləşdirilməsinin vacibliyi ortaya çıxır. UNFPA-nın Azərbaycanda uşaq nikahları ilə bağlı hazırladığı hesabatda qeyd edilir ki, erkən nikah hallarının daha çox olduğu rayonlar əsasən kənd təsərrüfatına söykənən və ənənəvi sosial normaların güclü olduğu ərazilərdir və burada həm iqtisadi çətinlik, həm də "qızın tez ərə verilməsi" haqqında yerli təsəvvürlər mühüm rol oynayır (UNFPA, 2013). UNICEF-in 2023 MICS nəticələrində Lənkəran-Astara bölgəsində 20–24 yaşlı qadınların üçdə birinin 18 yaşınadək nigaha girməsi də risk profilinin Cəlilabad rayonunda da yüksək olduğunu göstərir (UNICEF, 2024). Bu kontekst nəzərə alındıqda, Cəlilabadda dövlət qurumlarının, BMT agentliklərinin və yerli QHT-lərin qızlar üçün klub tipli təhlükəsiz məkanlar yaratması diqqət çəkən perspektiv hesab edilə bilər və həmin məkanların təhsil dəstəyi, hüquqi məlumatlandırma, psixososial gücləndirmə və peşə bacarıqları üzrə mərkəzlərə çevrilməsi düşünülə bilər. Bu klublara regiondan çıxmış gənc müəllimlər, həkimlər və sahibkar qadınlar mentor kimi qoşulduqda qızların fərqli həyat ssenarilərini görməsi, valideynlərin isə qızların gələcəyi barədə daha geniş perspektivlər düşünməsi daha mümkün görünür və belə təşəbbüslərin cənub bölgəsində işlək modelə çevrilməsi üçün pilot fəaliyyətlərə başlamaq üçün real zəmin yaranır.

## FƏSİL 4. TƏKLİF OLUNAN HƏLL YOLLARININ QİYMƏTLƏNDİRİLMƏSİ

Cəlilabad rayonu üçün hazırlanan siyasət təkliflərini yalnız sadalamaq kifayət etmir, bu alternativlərin hansının daha real, tətbiq oluna bilən və ədalətli olduğunu da dəyərləndirmək lazımdır. Üçüncü fəsildə müəyyən etdiyimiz əsas istiqamətlər – maarifləndirmə və mentalitetin dəyişdirilməsi, ailələrin iqtisadi dəstəklənməsi və motivasiyası, hüquqi çərçivənin gücləndirilməsi – eyni problemin fərqli tərəflərinə toxunur və hər birinin öz güclü və zəif tərəfləri var.

*Maarifləndirmə və mentalitetin dəyişdirilməsi üzrə həll paketinin qiymətləndirilməsi*

Maarifləndirmə tədbirləri və düşüncə tərzinin dəyişdirilməsi Cəlilabad kontekstində ən çox səslənən və sorğu iştirakçıları tərəfindən ən çox dəstəklənən istiqamətdir. Effektivlik nöqteyi-nəzərindən bu alternativin üstün cəhəti ondan ibarətdir ki, problemin kökünə – yəni qızların təhsildən və qadınların iş həyatından uzaqlaşdırılmasına səbəb olan stereotiplərə toxunur. Qızların təhsilini “lazımsız xərc”, qadının işləməsini “uyğunsuz davranış” kimi görən yanaşma dəyişməyənə qədər digər addımların təsir dairəsi məhdud qalır. Maliyyə və institusional resurs baxımından maarifləndirmə nisbətən az xərcli, amma çox əmək tələb edən bir istiqamətdir. Kəndlərdə seminarlar, valideyn görüşləri, məktəblərdə şagirdlərlə diskussiyalar, yerli televiziya və sosial şəbəkələr üçün hazırlanacaq qısa sosial çarxlar böyük infrastruktur tələb etmir. Bunun üçün mövcud məktəblər, klub binaları, bələdiyyə məkanları istifadə oluna bilər. Əsas ehtiyac insan resursudur: mövzuya bələd olan müəllimlər, psixoloqlar, sosial işçilər, fəal gənclər, din xadimləri prosesə cəlb olunmalıdır.

Praktiki icra baxımından maarifləndirmənin həm üstün, həm də mürəkkəb tərəfləri var. Üstün tərəfi odur ki, bu tədbirlərə tədricən başlamaq olur: bir-iki kənddə pilot layihə aparmaq, sonra uğurlu model digər kəndlərə yayılmaq imkanı tapır. Digər tərəfdən, mentaliteti dəyişmək çox yavaş gedən prosesdir və sürətli “ölçülə bilən nəticə” gözlənilə bilməz. İctimai və siyasi qəbulolunma bu həll istiqaməti üçün güclü tərəf sayılır. Valideynlərlə söhbət, məktəbdə açıq dərslər, din xadimlərinin moizələrində qızların təhsilindən danışmaq əksər hallarda təhdid kimi deyil, faydalı təşəbbüs kimi qəbul olunur. Maarifləndirmə birbaşa cəza tətbiq etmədiyinə görə müqavimət də nisbətən yumşaq olur, insanlar öz mövqelərini “sevərək” dəyişməyə daha açıq ola bilirlər.

*Ailələrin iqtisadi dəstəklənməsi və motivasiyası üzrə həll paketinin qiymətləndirilməsi*

İqtisadi dəstək və motivasiya tədbirləri – təqaüdlər, şərtli sosial yardımlar, peşə kursları, yeni iş yerlərinin yaradılması – daha çox “praktik” xarakter daşıyan həll alternatividir. Effektivlik baxımından bu yanaşmanın üstün cəhəti ondan ibarətdir ki, qızların təhsildən yayınmasında sorğuda yüksək pay tutan maddi çətinlik faktorunu birbaşa hədəfə alır. Əgər ailə qızının oxumasını maliyyə yükü kimi görürsə və təhsil xərclərini qarşılamaqdan çəkinirsə, təqaüd və digər maddi stimullar həmin baryeri bir qədər yumşalda bilər. Maliyyə və institusional resurslar baxımından bu həll paketi daha ağırdır. Təqaüd proqramları üçün illik sabit büdcə ayrılmalı, peşə kursları üçün məkan, avadanlıq, təlimçi vəsaiti təmin edilməli, yeni müəssisələrin qurulması üçün investisiyalar cəlb olunmalıdır. Cəlilabad kimi rayonda yerli büdcə ilə bu yükü daşımaq çətindir; burada mərkəzi hökumət, beynəlxalq təşkilatlar və özəl sektorun birgə iştirakı zəruri görünür. Real risk odur ki, maliyyə resursları davamlılıq baxımından zəif qaldıqda proqramlar bir neçə ildən sonra yarımçıq dayana bilər və ailələrdə “hökumət başladı, sonra da saxladı” kimi məyusluq formalaşa bilər.

İcra oluna bilmə baxımından iqtisadi dəstək tədbirləri struktur baxımından daha mürəkkəbdir. Məsələn, “Qızlar üçün təqaüd” proqramı üçün ədalətli seçim meyarları hazırlamaq, korrupsiya və qohumbazlıq risklərini minimuma endirmək, həqiqətən ehtiyacı olanların müəyyən edilməsi üçün şəffaf mexanizm qurmaq lazımdır. Eyni şey

şərtli sosial yardım mexanizmlərinə də aiddir; ailəyə “qızını oxutsan, yardım alacaqsan” şərtini tətbiq etmək üçün monitorinq sistemi formalaşdırılmalıdır. İş yerlərinin yaradılması və peşə təhsili məsələni daha da mürəkkəbləşdirir, çünki burada artıq rayonun ümumi iqtisadi siyasəti, investisiya mühiti, yerli infrastruktur və bazar şəraiti ön plana çıxır.

İctimai və siyasi qəbulolunma bu istiqamətdə birmənalı deyil. Bir tərəfdən, ailələr üçün maddi dəstək və qızların təhsili üçün təqaüd təklifləri çox cazibədar görünə bilər və buna etiraz edən çox az olar. Digər tərəfdən, sosial yardımın şərtləndirilməsi, qadının işləməsinin yardımı saxlamaq üçün “şərt”ə çevrilməsi kimi ideyalar bəzilərində narahatlıq doğura bilər. Eyni zamanda, yeni sənaye və emal müəssisələrinin yaradılmasını hər kəs alqışlasa da, qadınların həmin sahələrə daxil olmasına bəzi mühafizəkar dairələr “mühit uyğun deyil” arqumenti ilə müqavimət göstərə bilər. Sosial ədalət baxımından isə bu alternativin güclü tərəfi ondan ibarətdir ki, ən çox ehtiyacı olan – yəni aztəminatlı və təhsili olmayan qadınlar – hədəf qrupa çevrilir, bu isə bərabərsizlikləri yumşaltmaq üçün əhəmiyyətli addımdır.

*Hüquqi çərçivənin gücləndirilməsi və icranın təmin olunması üzrə həll paketinin qiymətləndirilməsi*

Hüquqi mexanizmlər – erkən nikaha qarşı nəzarətin artırılması, icbari təhsilin real icrası, məişət zorakılığı və ayrı-seçkilik hallarında daha sərt müdaxilə – problemin normativ tərəfinə yönəlmiş həll alternatividir. Effektivlik baxımından bu istiqamətin ən güclü tərəfi odur ki, cəmiyyətə aydın mesaj göndərir: “Qızların təhsil hüququ və erkən nikahlarla mübarizə dövlət üçün prioritetdir”. Əgər valideynlər və icma liderləri görsələr ki, konkret hallarda cərimələr tətbiq olunur, dini kəbinlə azyaşlı evləndirənlər məsuliyyətə cəlb edilir, məktəbdən çıxarılan qızların məsələsi hüquqi müstəviyə daşınır, bu, davranışlara deterent təsir göstərə bilər. Hüququn səsini ardıcıl şəkildə hiss edən cəmiyyətdə “hamı belə edir” məntiqi zəifləyir və ayrı-ayrı ailələr də öz davranışlarını nəzərdən keçirməyə məcbur olur. Maliyyə və institusional baxımdan hüquqi həllər bir tərəfdən nisbətən ucuz görünə bilər, çünki əsas yük hüquq-mühafizə orqanlarının, məhkəmə sisteminin və məktəb administrasiyalarının mövcud strukturlarına düşür. Digər tərəfdən, bu strukturların kapasitetini artırmaq – polisə gender təlimləri vermək, məktəblərdə psixoloq ştatlarını gücləndirmək, icra hakimiyyətləri yanında xüsusi monitorinq qrupları yaratmaq – əlavə resurs tələb edir. Cəlilabad kimi rayonda bu resursların ayrılması üçün siyasi iradə, büdcə prioritetlərinin yenidən qurulması və bəlkə də mərkəzdən əlavə dəstək lazım gələcək. Yəni hüquqi düzəlişin özünün kağız üzərində qəbulu ucuz ola bilər, amma onu işlək mexanizmə çevirmək ucuz deyil. Praktiki icra baxımından hüquqi alternativ çox həssas sahəyə toxunur. Erkən nikah hadisələrinə, məktəbdən yayınma hallarına, ailədaxili zorakılığa qarşı sərt müdaxilə ailənin daxili işinə müdaxilə kimi qavranıla bilər və bu, həm icma, həm də bəzi yerli məmurlar arasında müqavimət yarada bilər. Polisə və məktəb rəhbərliyinə “ailəni cərimələ” tapşırığını vermək asandır, amma bu addımın həmin qızın sonrakı həyatı üçün hansı emosional və sosial nəticələr yaradacağının da hesablanması lazımdır. Yanlış qurulan müdaxilə mexanizmi qızın vəziyyətini yüngülləşdirmək əvəzinə ailə içində təzyiqi artıra bilər. Ona görə də hüquqi alətləri işə salarkən paralel sosial dəstək mexanizmlərinin – sığınacaq, psixoloji məsləhət, sosial işçi dəstəyi – mövcudluğu vacibdir.

*Ən uyğun həll alternativinin seçilməsi*

Üç əsas həll istiqamətini beş meyar üzrə qiymətləndirəndə ortaya belə mənzərə çıxır: maarifləndirmə paketi problemin kökünə toxunur və nisbətən aşağı maliyyə xərci ilə bütün icmanı əhatə edir, lakin nəticələr uzun müddətdə görünür; iqtisadi dəstək güclü stimullaşdırıcı təsir göstərir və ən çox ehtiyacı olan qrupları hədəfə alır, amma maliyyə və idarəetmə baxımından ağırdır; hüquqi mexanizmlər davranışlara sərt

siqnal verir, amma yerli icrada həssas yanaşma olmadıqda həm müqavimət, həm də arzuolunmaz yan təsirlər yarada bilər. Belə bir tabloda təkcə bir istiqaməti seçib digərini kənara qoymaq real görünmür, amma "ilk hərəkət nöqtəsi" kimi daha çox hansının prioritetləşdirilməsi barədə qərar vermək mümkündür.

Bizim fikrimizcə, Cəlilabad üçün başlanğıcda ən uyğun və dayanıqlı əsas rolunu **maarifləndirmə və mentalitetin dəyişdirilməsi** istiqaməti oynaya bilər. Bu seçim o demək deyil ki, iqtisadi dəstək və hüquqi tədbirlər önəmsizdir; sadəcə, həm sorğu nəticələri, həm müsahibə, həm də beynəlxalq uğur nümunələri göstərir ki, sosial şüur dəyişmədən digər mexanizmlərin təsiri ya məhdud qalır, ya da ciddi müqavimətlə qarşılaşır. Maarifləndirmə tədbirləri icmanın içindən çıxan müəllim, həkim, din xadimi, gənc fəallar, Cəlilabaddan olan uğurlu qadınlar vasitəsilə aparıldıqda həm ailələrin qorxularını azalda, həm də qızların özünə inamını artıra bilir. Paralel olaraq seçilmiş kəndlərdə kiçik iqtisadi və hüquqi pilot müdaxilələr də bu çərçivənin içinə yerləşdirilə, amma "əsas xətt" kimi mentalitet dəyişikliyini daşıyan sosial proseslər saxlanıla bilər.

## FƏSİL 5. NƏTİCƏ VƏ TÖVSİYƏLƏR

### 5.1. Tədqiqatın ümumi xülasəsi

Cəlilabad rayonu üzrə aparılan tədqiqat göstərdi ki, qızların təhsildən yayınması və qadınların iş həyatında zəif təmsil olunması bir neçə fərqli, amma bir-birinə sıx bağlı mexanizmin nəticəsidir. Sorğu nəticələrinə əsasən, qızların orta məktəbdən sonra təhsilini davam etdirməməsinin əsas səbəbləri kimi ailələrin ənənəvi düşüncəsi, erkən nişan və nikah praktikası, maddi çətinliklər və perspektiv çatışmazlığı ön plana çıxır. Təxminən üçdə bir respondent maddi imkansızlığı, üçdə birə yaxını valideynlərin icazə verməməsini, dörddə birinə yaxını erkən nişan və nikahı əsas səbəb kimi qeyd edib. Qızların özlərinin "oxumaq istəməməsi" faktoru isə yalnız cüzi faizdə göstərilib ki, bu da qızların motivasiya çatışmazlığı barədə yayılmış stereotipi əslində təkzib edir.

Məşğulluq sahəsində də oxşar mənzərə formalaşır. Muzdlu işçilər arasında qadınların payı rayon üzrə çox aşağıdır və regionda yalnız bir rayonu qabaqlayır. Sorğuda qadınların böyük hissəsi hesab edir ki, rayon üzrə qadınlar üçün uyğun iş yerləri azdır, xüsusi ilə kənd yerlərində infrastruktur və qadınlara uyğun hesab edilən sahələr məhduddur. Eyni zamanda "qadın evdar olmalıdır" fikrini hələ də əsas səbəb kimi seçən kifayət qədər respondent var, ailə qadağası faktorunu ayrıca qeyd edənlər də az deyil. Yəni, həm iqtisadi struktur, həm də sosial norma qadınların əmək bazarına daxil olmasını məhdudlaşdırır. Müsahibədə də vurğulanır ki, uzun illər rayonda əsas işçi qüvvəsi kişi olub, qadınların işləməsi isə istisna hal kimi qəbul edilib.

Erkən nikah mövzusu tədqiqatın ən kritik tapıntılarından biridir. Sorğuda iştirak edənlərin yarıdan çoxu qızların 18 yaşdan əvvəl ailə qurmasına əsas səbəb kimi ənənəvi adət-ənənələri göstərib. Yoxsulluq və qızların təhsildən yayınması ilə bağlı perspektivsizlik də əlavə amillər kimi qeyd olunub. Eyni zamanda respondentlərin əksəriyyəti erkən nikahın qızların həyatında mənfi nəticələrə yol açdığını qəbul edir, yəni insanların şüurunda erkən evlilik "normal" sayılsa da, zərəri də inkar edilmir. Bu paradoksal vəziyyət onu göstərir ki, cəmiyyət məntiqən problemin fərqindədir, lakin onu dəyişdirəcək mexanizmlər yetərincə işləmir.

Ən maraqlı nəticələrdən biri qadınların öz mövqeyi ilə bağlıdır. Sorğuda iştirak edən qadınların böyük hissəsi qızların ali təhsil almasının vacib olduğunu düşünür, "qadının yeri yalnız evdir" fikri ilə razılaşmır, ali təhsilin ailə qurmaq şansına mənfi təsir göstərdiyini düşünənlərin payı isə azdır. Yəni qadınlar arasında şüur səviyyəsində ciddi dəyişiklik baş verib. Problem daha çox ailədaxili güc balansında, kişilərin və yaşlı nəsilin mövqeyində, eləcə də iqtisadi reallıqlarda cəmlənir. Qadınların səsi var, amma bu səs ailə qərarlarına hər zaman təsir edə bilmir.

Ümumiləşdirəndə, Cəlilabadda qadınların təhsil və əmək hüquqlarının məhdudlaşdırılması dörd əsas blokdan qidalanır: patriarxal mədəni normalar və sosial nəzarət, erkən nikahlar, iqtisadi imkanların məhdudluğu və hüquqi mexanizmlərin zəif icrası. Bu bloklar bir-birini gücləndirən dairə yaradır: mentalitet qızın təhsildən çıxmasını şərtləndirir, erkən nikah onun həm təhsil, həm iş imkanlarını bağlayır, iqtisadi asılılıq qadının ailə daxilində sözünü zəiflədir, hüquqi mexanizmlərin zəif çalışması isə bu dövrəni qırmağa imkan vermir. Sorğu və müsahibə nəticələri göstərir ki, bu struktur sabit olsa da, artıq sarsılmağa davam edən nöqtələri var və düzgün hədəflənmiş siyasət müdaxilələri ilə dəyişiklik üçün real zəmin mövcuddur.

### 5.2. Üstünlük verilən siyasət variantı

Üçüncü və dördüncü fəsillərdə müxtəlif siyasət alternativləri nəzərdən keçirildi: maarifləndirmə və mentalitetin dəyişdirilməsi, ailələrin iqtisadi dəstəklənməsi, hüquqi nəzarətin gücləndirilməsi, sosial infrastrukturun qurulması və qadınlar üçün resurs mərkəzlərinin yaradılması. Bütün bu istiqamətlər vacibdir və bir-birini tamamlayır.

Bununla belə, başlanğıc nöqtəsi seçilməli olsa, Cəlilabad kimi mühafizəkar rayon üçün ən rasional “lokomotiv” siyasət variantı maarifləndirmə və düşüncə tərzinin dəyişdirilməsi görünür.

Bu variantı əsas siyasət alternativi kimi seçməyin bir neçə səbəbi var. Birincisi, sorğuda qadınların özləri qızların təhsilə davam etməsi və qadınların işləməsi üçün ən vacib addım kimi məhz valideynlər və gənclər arasında maarifləndirmə tədbirlərini göstəriblər. Yəni, lokal ictimai rəy bu istiqaməti həm gərəkli, həm də qəbul edilə bilən hesab edir. İkincisi, beynəlxalq praktikada da görüldü ki, qız klubları, icma əsaslı təlimlər, ailələrlə dialoq və icma liderlərinin prosesə cəlb olunması kimi alətlər həm erkən nikahların qarşısını almaqda, həm də qızların təhsildə qalmasında effekt verib. Üçüncüsü, iqtisadi və hüquqi müdaxilələr məhz bu zəmində daha rahat oturur; yəni ailə şüur altında “qızın oxuması və işləməsi yaxşıdır” qənaətinə gəlməyibsə, verilən təqaüd və ya qəbul edilən qanun tam işləməyəcək.

Maarifləndirmə alternativi həm də resurs baxımından daha çevikdir. Bunu tədricən, pilot kəndlərdən başlayaraq genişləndirmək olar, burada həm dövlət strukturlarını, həm QHT-ləri, həm də beynəlxalq təşkilatları bir masa arxasında toplamaq mümkündür. Əsas xətləri belə təsəvvür etmək olar: müəllim və məktəb rəhbərləri məktəb-ailə xəttində iş aparır, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin regional mərkəzləri icma ilə çalışır, din xadimləri və yerli tanınmış şəxslər sərt qadağa deyil, “başqa yol mümkündür” mesajını verir, həmçinin qızların özünüfəallaşmasını dəstəkləyən klub və resurs mərkəzləri qurulur. Bu strukturun üstünlüyü ondadır ki, həm hüquqi, həm iqtisadi, həm də sosial digər proqramlar sonradan bu çərçivəyə əlavə oluna bilər.

### 5.3. Qısamüddətli və uzunmüddətli tövsiyələr

Bu hissədə artıq formalaşmış nəticələr və seçilmiş siyasət çərçivəsində konkret tövsiyələri dövlət institutları üzrə qısa şəkildə qruplaşdıraq.

**Qısamüddətli tövsiyələr (1–3 il) aşağıdakılardır:**

**Elm və Təhsil Nazirliyi, Cəlilabad RİH Təhsil şöbəsi**

a. Cəlilabadın kənd və qəsəbə məktəblərində IX–XI siniflər üzrə qızların davamiyyəti ilə bağlı xüsusi monitorinq aparsın, qızların təhsildən yayınma halları üzrə məktəb-müəllim–valideyn üçbucağında hədəfli görüşlər təşkil etsin.

b. Məktəblərdə qızların təhsili, erkən nikah və peşə seçimləri mövzularında sinifdaxili və məktəbdaxili müzakirə günləri, valideyn iclasları keçirsin.

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Cəlilabad Uşaq və Ailə Dəstək Mərkəzi**

a. Cəlilabadda qızların təhsildən yayınması, erkən nikah və qadın məşğulluğu ilə bağlı ən azı 3 pilot kənddə icma görüşləri və maarifləndirici sessiyalar planlaşdırsın.

b. Yerli müəllimlər, tibb işçiləri və fəal qadınlarla birlikdə “qız klubları” tipli kiçik qrup görüşlərinə başlasın, bu qruplarda həm hüquq, həm sağlamlıq, həm də təhsil imkanları haqqında söhbətlər aparılsın.

**Daxili İşlər Nazirliyi, yerli polis idarəsi**

a. Erkən nikah riski yüksək olan kəndlərdə məktəb və icra nümayəndəliklərindən daxil olan məlumatları sistemli şəkildə toplasın, profilaktik söhbət mexanizmini normaya çevirsin.

b. Polis əməkdaşları üçün Cəlilabad üzrə qısa gender həssaslıq təlimləri təşkil edilsin ki, ailə müraciətlərinə “öz aranızda həll edin” yanaşması minimuma ensin.

**UNDP, UNICEF, UNFPA kimi beynəlxalq tərəfdaşlar**

a. Cəlilabadda bir Qadın Resurs Mərkəzi üçün texniki-maddi dəstək versin, bu mərkəzdə qızlar və gənc qadınlar üçün təlimlər, klub görüşləri və məsləhət xidmətləri təşkil olunsun.

**Uzunmüddətli tövsiyələr (3–10 il)**

**Elm və Təhsil Nazirliyi**

a. İcbari təhsil müddətinin real icrasını gücləndirmək üçün Cəlilabad və oxşar rayonlarda 11 illik təhsili pilot istiqamətdə faktiki standart kimi tətbiq etsin, qızların məktəbdən çıxmasının qarşısını alan mexanizmləri nəzərdə tutsun.

b. Cəlilabadda peşə təhsili mərkəzlərini qızlar üçün daha cəlbedici edən xüsusi proqramlar (təqaüd, yataqxana, nəqliyyat dəstəyi) hazırlasın.

**İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Cəlilabad RİH və yerli bələdiyyələr**

a. Rayonda qadınlar üçün iş sahəsi yaradacaq kiçik emal və xidmət müəssisələrinin açılmasını stimullaşdıran regional proqram hazırlasın, bu müəssisələrə vergi güzəştləri və yumşaq kreditlər təklif edilsin.

b. Ünvanlı sosial yardım proqramında qadının məşğulluq və təhsil kurslarında iştirakı ilə bağlı motivasiyaedici mexanizmlər nəzərdən keçirilsin, qızını məktəbdə saxlayan və ya qızının peşə təhsilini dəstəkləyən ailələr üçün kiçik əlavə stimul mexanizmləri sınaqdan keçirilsin.

c. Qadınlar üçün ictimai məkanların – resurs mərkəzi, klub, kitabxana guşəsi – yaradılmasına və saxlanmasına dəstək versin, bu məkanları əsasən gənclər və qadınlar üçün sosial layihələrin mərkəzinə çevirsin.

**Milli Məclis, Ədliyyə Nazirliyi**

a. Erkən nikah və təhsildən yayınma ilə bağlı mövcud qanunvericilikdə icra boşluqlarını nəzərə alaraq praktiki tətbiqi gücləndirən əlavə mexanizmlər barədə müzakirələr aparsın, dini kəbinlə azyaşlı evləndirmə halları üçün daha aydın sanksiya mexanizmi formalaşdırılsın.

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Dövlət Statistika Komitəsi**

a. Cəlilabad və digər cənub rayonları üzrə qızların təhsil göstəriciləri, erkən nikah faizi, qadın məşğulluğu kimi indikatorları illik monitorinq paketi kimi dərc etsin, bu məlumatlar ictimaiyyət üçün açıq şəkildə təqdim olunsun və rayon rəhbərliyi üçün hesabatlılıq alətinə çevrilsin.

Zənnimizcə, bu tövsiyələrimiz biri-birindən ayrı çıxış yolu deyil, eyni problemin müxtəlif qatlarına toxunan paralel xətlər kimi nəzərdən keçirilməlidir. Qısa müddətdə həm zehniyyətə, həm institusiyalara, həm də konkret ailə davranışına toxunan kiçik, amma ardıcıl addımlar atıldıqda, uzun müddətdə Cəlilabad cəmiyyəti üçün daha balanslı və cins baxımından ədalətli modelə yaxınlaşmaq ehtimalı güclənir.

## ƏDƏBİYYAT SİYAHISI


1. Asian Development Bank. (2021). The Female Secondary Stipend and Assistance Program in Bangladesh.
2. Azərbaycan Respublikası Milli Məclisi. (2006). Kişi və qadınların bərabər hüquq və imkanlarının təminatları haqqında Qanun.
3. Azərbaycan Respublikası Milli Məclisi. (2010). Məişət zorakılığının qarşısının alınması haqqında Qanun.
4. Azərbaycan Respublikası Statistika Komitəsi – Rayonlar üzrə muzdlu qadın işçilərin payı, 2025.
5. Baku Research Institute. (2020). Domestic violence policy analysis in Azerbaijan.
6. Bandiera, O., Buehren, N., Burgess, R., Goldstein, M., Gulesci, S., Rasul, I., & Sulaiman, M. (2017). Women's empowerment in action: Evidence from a randomized control trial in Africa.
7. Behrman, J. R., Parker, S. W., & Todd, P. E. (2019). Impacts of PROSPERA on enrollment, school trajectories, and learning.
8. BRAC. (2016). Evaluation of BRAC's Empowerment and Livelihood for Adolescents (ELA) programme in Uganda.
9. Council of Europe. (2021). GREVIO baseline evaluation report on Azerbaijan.
10. Demokrat.az məqaləsi – "Qadınların sahibkar olmasına nələr mane olur?" (qadınların potensialını reallaşdırmasına mane olan amillər).
11. Diop, N. J., Moreau, A., & Benga, H. (2008). Evaluation of the long-term impact of the TOSTAN programme on the abandonment of FGM/C and early marriage: Results from a qualitative study in Senegal. Population Council.
12. DSK (2024). Təhsilin əsas göstəriciləri, https://stat.gov.az/source/education/az/001_1_1.xls
13. DSK (2025). 2025-ci il yanvarın 1-i vəziyyətinə muzdlu işçilərin iqtisadi rayonlar və inzibati ərazi vahidləri və mülkiyyət növləri üzrə cins bölgüsündə sayı, https://stat.gov.az/source/labour/az/009_5-A.xls
14. Equimundo. (2019). Masculinities and gender norms in Eastern Europe.
15. EU Neighbours East. (2022). Gender equality initiatives in Azerbaijan.
16. Girls Not Brides (2024) "Child Marriage Atlas – Azerbaijan" – Azərbaycanda uşaq nikahlarının yayılması və səbəbləri.
17. Girls Not Brides (n.d.) "Child marriage and education" – Qızların təhsildə qalmasının uşaq nikahlarına təsiri barədə hesabat.
18. Harvard Ministerial Leadership Program. (2020). From Progresa to Prospera: Case study.
19. ILO NATLEX. (2021). Azerbaijan Family Code.
20. Lindert, K., Linder, A., Hobbs, J., & de la Brière, B. (2007). The nuts and bolts of Brazil's Bolsa Família program.
21. Ministry for Foreign Affairs of Finland. (2020). Gender and human rights assessment: Azerbaijan.
22. Ministry of National Education of Türkiye. (2022). Close watch for unregistered students.
23. Population Council. (2008). Evaluation of the long-term impact of the TOSTAN programme on the abandonment of FGM/C and early marriage.
24. SDG Azerbaijan. (2011). National review of Sustainable Development Goals: Gender indicators.
25. Sitat.info xəbəri (03.11.2022) – "Cəlilabadda qızların təhsildən yayındırılması ilə bağlı tədbir keçirilib".

26. Statistika Komitəsi (2025). “Azərbaycan Respublikasının iqtisadi rayonları və inzibati ərazi vahidləri üzrə 2024-cü ildə ümumi təhsil müəssisələrini bitirmiş və tam orta təhsil haqqında attestat alaraq həmin il ölkənin ali təhsil müəssisələrinə qəbul olunmuş tələbələrin cins üzrə bölgüsü”, https://stat.gov.az/source/education/az/001_10_16.xls
27. Statistika Komitəsi (2025a). 2024-cü ildə bəy və gəlinin yaş qruplarına görə nikahların sayı, https://stat.gov.az/source/demoqraphy/az/006_4.xls
28. Teleqraf (2017). Dövlət komitəsindən qız atalarına – Çağırış, https://teleqraf.az/news/gundem/144569.html
29. Teleqraf.com xəbəri (03.08.2017) – “Dövlət komitəsindən qız atalarına çağırış” (regionlarda nikahdan kənar doğum və erkən nikah statistikası).
30. Tostan. (2017). Tostan’s Community Empowerment Programme: Case study on mobilising families to end child marriage and FGM/C.
31. UK Government. (2020). Forced marriage protection orders (FL701).
32. UK Parliament. (2014). Family Law Act 1996, section 63CA: Offence of breaching forced marriage protection order.
33. UNDP Azerbaijan (2021) “Modernising VET Centres in Azerbaijan” – Cəlilabad rayonunda peşə təhsili layihəsi barədə məlumat.
34. UNDP. (2019). Aİ, BMTİP Cəlilabadda yeni təmirdən çıxan peşə təhsili emalatxanasının açılışını edib.
35. UNFPA. (2011). Child marriage and legal reforms in Eastern Europe and Central Asia.
36. UNFPA. (2013). Child marriage in Azerbaijan: Overview.
37. UNFPA. (2023). Sahel Women’s Empowerment and Demographic Dividend (SWEDD) annual report.
38. UNICEF (2023) “Multiple Indicator Cluster Survey – Azerbaijan: LənkəranAstara region data” – Uşaq nikahlarına dair göstəricilər.
39. UNICEF (2023). Azerbaijan Multiple Indicator Cluster Survey 2023, https://mics.unicef.org/sites/mics/files/2024-10/Azerbaijan%202023%20MICS%20SFR_English.pdf
40. UNICEF. (2018). Early warning systems for students at risk of dropping out: Policy and practice pointers.
41. UNICEF. (2024). Azerbaijan 2023 Multiple Indicator Cluster Survey (MICS) Survey Findings Report.
42. World Bank. (2007). The nuts and bolts of Brazil’s Bolsa Família program.
43. World Bank. (2017). Adolescent girls’ empowerment programmes: Evidence to policy note.
44. World Bank. (2021). Girls’ Education. World Bank.
45. World Bank. (2023). Increasing female labor force participation: Policy options and evidence.

## ƏLAVƏLƏR

**Sorğu sualları (anket):** *Demoqrafik suallar:*

1. **Yaşınız:**

a) 18-24 yaş;
b) 25-34 yaş;
c) 35-44 yaş;
d) 45-54 yaş;
e) 55 və yuxarı.

2. **Ailə vəziyyətiniz:**

a) Subay;

b) Nişanlı;
c) Evli;
d) Boşanmış;
e) Dul.
3. **Təhsil səviyyəniz:**
a) Tam orta təhsil (11 illik məktəb);
b) Orta ixtisas təhsili (kollec);
c) Bakalavr təhsili;
d) Magistr ya daha yüksək;
e) Heç biri (9 illik və ya aşağı).
4. **Məşğulluq statusunuz:**
a) İşsiz (iş axtarırsınız);
b) Evdar (işləmirsiniz, ev təsərrüfatı ilə məşğulsunuz);
c) Tələbə;
d) Muzdlu işçi
e) Frilanser işçi
f) Sahibkar
5. **Yaşadığınız yer:**
a) Cəlilabad şəhər mərkəzi;
b) Kənd;
c) Cavab vermək istəmirəm.

*Əsas tədqiqat sualları:*

6. **Sizcə, Cəlilabad rayonunda qızların orta təhsildən sonra təhsilini davam etdirməməsinin əsas səbəbi nədir?**
a) Valideynlərin icazə verməməsi (ənənəvi düşüncə);
b) Erkən nişanlanma və nikah;
c) Maddi çətinlik (ailənin imkanı olmaması);
d) Qızların özlərinin maraq göstərməməsi;
e) Digər.
7. **Sizcə, Cəlilabad rayonunda qadınların iş həyatında az iştirak etməsinin başlıca səbəbi hansıdır?**
a) "Qadın gərək evdar olsun" düşüncəsi (cəmiyyətin gözləntiləri);
b) Rayon üzrə qadınlar üçün iş yerlərinin az olması;
c) Qadınların lazımi təhsil və ixtisasa sahib olmaması;
d) Ərlərin/ailənin qadına işləməyə icazə verməməsi;
e) Digər.
8. **Sizcə, kənd yerlərində qızların erkən yaşda (18-dən əvvəl) ailə qurmasına ən çox hansı amil təsir edir?**
a) Ənənəvi adət-ənənələr və mentalitet;
b) Ailənin sosial-iqtisadi vəziyyəti (yoxsulluq);
c) Qızların təhsildən yayınması ilə perspektivsizlik;
d) Qızın və ya ailəsinin şəxsi istəyi;
e) Digər.
9. **Sizcə, qadının ali təhsil alması onun ailə qurmaq şansına təsir edirmi?**
a) Bəli, mənfi təsir edir (ali təhsilli qadın ailə qurmaqda çətinlik çəkir);
b) Bəli, qismən təsir edir;
c) Xeyr, xüsusi təsir göstərmir;
d) Əksinə, müsbət təsir edir (ali təhsil ailə qurmaq şansını artırır);
e) Fikrim yoxdur.

10. **Sizcə, Cəlilabad rayonunda qızların təhsilə davam etməsi və qadınların işləməsi üçün hansı addım daha vacibdir?**

a) Valideynlər və gənclər üçün mütəmadi maarifləndirmə tədbirləri;
b) Aztəminatlı qızlar üçün təqaüd və maliyyə dəstəyi proqramları;
c) Erkən nikahların qarşısını alan qanunların sərt icrası;
d) Rayon üzrə yeni iş yerlərinin açılması və qadınlar üçün peşə kursları;
e) Digər.

*Likert şkalası üzrə ifadələr:* (Aşağıdakı fikirlərlə nə dərəcədə razı olduğunuzu 5 balla qiymətləndirin: 1 – heç razı deyiləm, 5 – tam razıyam.)

11. "Qadının əsas rolu ailədə evdar qalmaq və övladlarına baxmaqdır, karyera o qədər də vacib deyil."
12. "Qızların ali təhsil alması onların gələcəyi üçün o qədər də vacib deyil, orta təhsillə kifayətlənmək olar."
13. "Erkən yaşda (18-dən əvvəl) nikaha girmək qızların həyatında mənfi nəticələrə yol açır."
14. "Kənd yerində yaşayan qadınlar üçün işləmək imkanı çox məhduddur, ona görə də əksər qadınlar evdar qalmağa məcburdur."
15. "Valideynlər oğlan övladları qədər qız övladlarının təhsilinə də önəm verməlidirlər."

**Müsahibə sualları:**

1. Cəlilabad rayonunda qızların təhsilini davam etdirməsinə və qadınların iş həyatında iştirakına mane olan əsas sosial-mədəni amillər hansıdır? (Sizcə, yerli icmada qadınların üzləşdiyi əsas maneələr nələrdir?)
2. Qadınların təhsildən və əmək fəaliyyətindən kənarda qalmasının Cəlilabad rayonunun sosial-iqtisadi həyatına hansı təsirləri barədə nə deyə bilərsiniz? (Bu hal ailələrin rifahına, icmanın inkişafına necə təsir edir?)
3. Son illərdə Cəlilabadda qızların təhsilə cəlb olunması və qadınların işləməsi sahəsində hər hansı dəyişiklik müşahidə etmisinizmi? (Məsələn, əvvəlki nəsillərə nisbətən müsbət və ya mənfi yönümlü trend varmı?)
4. Sizcə, bu problemlərin həlli üçün hansı addımlar atılmalıdır? (Məsələn, qanunvericilikdə dəyişiklik, maarifləndirmə kampaniyaları, yerli səviyyədə hansı təşəbbüslər və infrastruktur layihələri effektiv ola bilər?)
5. Cəlilabad cəmiyyətində qadınların təhsilinə və işləməsinə münasibəti necə xarakterizə edərdiniz və bu münasibətin müsbətə doğru dəyişməsi üçün nələr tələb olunur? (İcmanın mentalitetində dönüş yaratmaq üçün nə etmək olar?)